# UŞAQLARIN ƏDLİYYƏ SİSTEMİNƏ ÇIXIŞI BAXIMINDAN AZƏRBAYCAN QANUNVERİCİLİYİNİN TƏHLİLİ

Bu nəşr Avropa Ittifaqının dəstəyi ilə dərc edilmişdir. Bu nəşrin məzmunu görə müəlliflər məsuliyyət daşıyır və heç bir şəkildə Avropa İttifaqının mövqeyini əks etdirmir.

**BAKI 2014**

# Qısaltmalar

| | |
|---|---|
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| AR | Azərbaycan Respublikası |
| DİN | Daxili İşlər Nazirliyi |
| QHT | Qeyri-hökumət təşkilatı |
| UHK | Uşaq Hüquqları Konvensiyası |
| CM | Cinayət Məcəlləsi |
| CPM | Cinayət Prosessual Məcəllə |
| MM | Mülki Məcəllə |
| İXM | İnzibati Xətalar Məcəlləsi |
| CİM | Cəzaların İcrası Məcəlləsi |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |

## Mündəricat

Giriş ........................................................................................................................4

Qanunvericiliyin təhlilinin məqsədləri .............................................................................6

Beynəlxalq hüquq ..............................................................................................................7

I. CİNAYƏT VƏ İNZİBATİ HÜQUQ SAHƏSİNDƏ UŞAQLARIN ƏDLİYYƏ SİSTEMİNƏ ÇIXIŞI .........................................................................................8

A. Ümumi prinsiplər ............................................................................................................8

B. Həbs və məhkəməyə qədər icraat ………………………………………………… 10

C. Məhkəmə icraatı ..............................................................................................................17

D. Cəzanın təyin edilməsi ………………………………….....…………….25

E. Cəzaçəkmə müəssisələrində islah olunma ......……………………………......29

F.Profilaktika…………………………………………………………….…31

II. UŞAQLARLA BAĞLI HƏSSAS ƏDLİYYƏ VƏ CİNAYƏTİN QURBANI VƏ ŞAHİDİ OLAN UŞAQLARIN MÜDAFİƏSİ ……....………………………………..34

A. Cinayətin qurbanı və şahidi olan uşaqların müdafiəsi ...……………………...34

B. Uşaqlarla bağlı həssas ədliyyə …………………………………………….…… 37

III. UŞAQLARIN MÜLKİ VƏ AİLƏ HÜQUQU SAHƏLƏRİNDƏ ƏDLİYYƏ SİSTEMİNƏ ÇIXIŞI..........................................………………………………..39

A. Aidiyyəti dövlət orqanları tərəfindən uşaqların hüquq və mənafelərinin qorunması......…40

B. Ailə və ailələrə dövlət dəstəyi ………………………………………………41

C. Uşaqlara alternativ qayğı...........……………………………………………….…43

D. Mülki prosesdə uşaqların statusu və hüquqları.....…………………………...……48

YEKUN……........................……………………………………………………… 52

# Giriş

Uzun illərdir ki, Azərbaycan BMT ailəsinin bir üzvüdür. Azərbaycan Respublikasının müxtəlif dövlətlərdən ibarət belə bir təşkilatın üzvü olması onu həmin təşkilat tərəfindən qəbul olunan beynəlxalq standartların, qərarların və həyata keçirilən proqramların tələblərinə riayət etməyə və beynəlxalq hüququn normalarına uyğun milli qanunvericilik sistemini formalaşdırmasına yönəldir. Digər dövlətlər kimi Azərbaycan Respublikası da dövlətin qanunlarının beynəlxalq hüquqa uyğunluğunu təmin etmək məqsədilə bir çox sahələrdə islahatlar aparmışdır. İslahatların keçirilməsi zəruri hesab edilən sahələrdən biri də "uşaq ədliyyəsi" və ya "yuvenal ədliyyə", eləcə də bu termindən daha geniş münasibtləri əhatə edən və uşaqların milli məhkəmə, inzibati (hüquq-mühafizə) və monitorinq (nəzarət) aparan qurumlara çıxışını tənzimləyən və məhdudiyyət qoyulmadan cinayət qanunvericiliyinin pozulmasında ittiham olunan, təqsirli bilinən və ya cinayət qanunvericiliyini pozmuş kimi tanınan uşaqlar da daxil olmaqla uşaqlara təsir edən bütün müvafiq məhkəmə prosedurlarını, habelə cinayətin şahidi və qurbanı olan və ya onlara qayğı göstərilməsi, saxlanması və ya qorunması kimi digər səbəblərlə bağlı olaraq ədliyyə sistemi ilə əlaqəyə girən digər uşaqları əhatə edən "uşaqların ədliyyə sisteminə çıxışı" sahəsidir. Bu mənada "ədliyyə" dedikdə bütün qeyd olunan instansiyalar (məhkəmə, inzibati (hüquq-mühafizə) və monitorinq/nəzarət) nəzərdə tutulur.

Uşaq Ədliyyəsinə BMT-nin Ümumi Yanaşması bu anlayışla bağlı genişdir. Ədliyyə sisteminə çıxış "milli və beynəlxalq norma və standartlarda (Uşaq Hüquqları Konvensiyası da daxil olmaqla) nəzərdə tutulmuş olan hüquqların pozulmasına görə ədalətli və vaxtlı həllərin tapıla bilməsi bacarığıdır... Ədliyyə sisteminə çıxışın olmaması yoxsulluğun müəyyənedici atributudur, habelə yoxsulluğun aradan qaldırılmasına və gender bərabərliyinə maneədir. Ədliyyə sisteminə lazımi çıxışın təmin edilməsi üçün bütün uşaqların qanuni səlahiyyətləndirilməsi tələb olunur: onların hamısının hüquqi xidmətlər və uşaq hüquqlarının tədrisi və ya bilikli böyüklərdən məsləhət və ya dəstək almaq kimi digər xidmətlər vasitəsi ilə öz hüquqlarını tələb etmək imkanı olmalıdır " kimi müəyyən edilə bilər.

Beynəlxalq standartlara əməl etmək məqsədi ilə, uşaqların ədliyyə sisteminə çıxışı üçün bir tərəfdən uşaqlarla bağlı həssas və tam işlək vəziyyətdə olan ədliyyə sisteminin mövcud olması və digər tərəfədən uşaqların öz hüquqlarını tələb etməsi və belə hüquqların bərpa edilməsinə nail olması üçün onların zəruri informasiya və dəstək ilə təmin olunması tələb olunur.

"Uşaq" anlayışına gəldikdə isə, bu termin milli qanunvericilikdə tətbiq olunan "yetkinlik yaşına çatmayanlar" termini ilə eyniyyət təşkil edir.

Ölkədə müvafiq islahatlar ilk öncə "yuvenal ədliyyə" sahəsindən başlanılmışdır. Yuvenal ədliyyə sisteminin təhlili BMT-nin Uşaq Hüquqları Komitəsinə hesabatın verilməsi zamanı Azərbaycanda 2006-cı ildə, Azərbaycan qanunvericiliyinin BMT-nin Uşaq Hüquqları Konvensiyası və BMT-nin yuvenal ədliyyə sahəsində olan digər aidiyyəti norma və standartları da daxil olmaqla müvafiq aidiyyəti beynəlxalq standartlara nə dərəcədə uyğun olması məqsədi ilə həyata keçirilmişdir.

Komitə yuvenal ədliyyə sahəsində aşağıdakı məsələlərlə bağlı fikir bildirmişdir:

(a) Tərəf Dövlət, Konvensiyanın müddəalarına uyğun olaraq qanunu pozmuş uşaqların vəziyyətlərini tənzimləyən yuvenal ədliyyə sahəsində qanunvericilik qəbul etməmişdir;
(b) Uşaqlarla bağlı istintaq və qanunu pozmuş uşaqların dindirilməsi üzrə ixtisaslaşmış hüquq mühafizə orqanları əməkdaşları yoxdur;
(c) Elə hüquqpozmalar vardır ki, bunlarla bağlı yaşı 18-dən az olan şəxslər də böyüklər kimi mühakimə olunurlar;
(d) Yaşı 18-dən az olan şəxslər tez-tez məhkəməyədək icraat zamanı uzun müddətli olaraq saxlanılırlar və xüsusilə də qadınlar saxlanıldıqda hər zaman böyüklərdən ayrıca saxlanılmırlar;
(e) Azadlıqdan məhrumetməyə alternativ tədbirlər kifayət qədər nəzərə alınmır və tətbiq edilmir, habelə yaşı 18-dən az olan şəxslər 10 ilə qədər azadlıqdan məhrum edilə bilərlər;
(f) Saxlanma şəraiti bir çox hallarda zəif və qeyri-adekvat olur və həddən artıq insanın olması ciddi problem hesab olunur;
(g) Yaşı 18-dən az olan, qanunu pozmuş şəxslərin reabilitasiyası, onlara köməklik göstərilməsi və cəmiyyətə yenidən inteqrasiya etməsi üzrə xidmətlər kifayət qədər deyildir.

Ən sonda, Komitə təhlilin nəticələrini ümumiləşdirərək öz yekun qeydlərində Azərbaycan Respublikasına aşağıdakı tövsiyyələrini vermişdir:

(a) Xüsusilə də uşaqlarla bağlı həssas istintaq və dindirmələr ilə əlaqədar treyninqlərlə bağlı uşaqlar üçün ixtisaslaşdırılmış polis xidmətlərinin yaradılması məsələsinə baxmaq;
(b) Yaşı 18-dən az olan uşaqların yalnız son tədbir kimi və ən qısa müvafiq müddət ərzində azadlıqdan məhrum edilməsi məqsədi ilə xüsusilə də azadlıqdan məhrumetmə cəzasına alternativlər müəyyən etmək və tətbiq etməklə, qanunu pozmuş uşaqlar üçün yönləndirmə mərkəzləri və/ və ya hüquq klinikaları yaratmaqla bütün zəruri tədbirlər görmək;

(c) Cəzaların İcrası Məcəlləsinin 72.1-ci maddəsinin tələbinə uyğun olaraq azadlıqdan məhrum edilmiş və ya həbsdə olan yaşı 18-dən az olan şəxslərin, xüsusilə də qadınların saxlanması zamanı onların böyüklərdən ayrı saxlanılmasını təmin etmək;
(d) Yaşı 18-dən az olan şəxslərin saxlanması şəraitlərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması məqsədi ilə təcili addımlar atmaq və onları beynəlxalq standartlara tam uyğun vəziyyətə gətirmək;
(e) Yaşı 18-dən az olan, azadlıqdan məhrum edilmiş şəxslərə (fiziki təhsil də daxil olmaqla) ətraflı təhsil fəaliyyətləri proqramlarının verilməsini təmin etmək;
(f) Uşaqların reabilitasiyası və sosial inteqrasiyası sahəsində mütəxəssislərə təlimlərin keçirilməsini təmin etmək və qanunu pozmuş, yaşı 18-dən az olan şəxslərin işlərinin aparılması üçün polis orqanlarının nəzdində xüsusi bölmələr yaratmaq.

2007-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, UNİCEF Azərbaycan, ATƏT-in Bakı ofisi və Uşaq Hüquqları QHT İttifaqı arasında Azərbaycanda yuvenal ədliyyə sisteminin təkmilləşdirilməsi sahəsində Anlaşma Memorandumu imzalanmışdır. Elə həmin ildən də ölkədə yuvenal ədliyyə sahəsində islahatların aparılmasına başlanılmışdır.

## Təhlilin məqsədləri

Bu hesabat üzrə aparılmış təhlilin məqsədi Azərbaycan Respublikasının mövcud olan qanunlarının və Məcəllələrinin uşaqların ədliyyə sisteminə çıxışı ilə bağlı olan beynəlxalq norma və standartlarına uyğunluğunu qiymətləndirmək və qanunların və siyasətlərin mükəmməl yuvenal ədliyyə sistemilərinin yaradılmasının daha da təkmilləşdirməsi üçün zəruri tövsiyyələr verməkdən ibarətdir.

Hesabatda ədliyyə sisteminə çıxış üzrə dövlətin öhdəlikləri şərti olaraq iki qrupa bölünmüşdür. Onlardan birinci qrup cinayət və inzibati hüquq sahəsində olan məsələləri, ikincisi isə mülki, ailə və digər hüquq sahələrində olan məsələləri əhatə edir. Hazırki hesabatda hər bir sahə üzrə ayrıca olaraq beynəlxalq hüquq normaları açıqlanmaqla həmin normaların milli qanunvericilik səviyyəsində hansı dərəcədə əks olunduğu nəzərə çatdırılır. Bundan başqa, milli qanunvericilikdəki boşluqlar və uyğunsuzluqlar, habelə praktikada bu məsələlərin nə dərəcədə icra edildiyi qeyd edilməklə ***uşaqların ədliyyə sisteminə çıxışının necə təmin ediləcəyi məqsədi ilə rəhbər istiqamətlərin müəyyən edilməsi üçün*** müvafiq tövsiyələr verilmişdir.

Hesab edirik ki, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi uşaqların ədliyyə sisteminə çıxışını baxımından beynəlxalq norma və standartlar əsasən uyğundur. Lakin, milli qanunvericilikdə bəzi normalar üzrə

uyğunsuzluqların və boşluqların mövcud olması səbəbindən ədliyyə sisteminə çıxışın əldə edilməsində çətinliklərin və ziddiyyətlərin yarandığı danılmazdır. Bundan əlavə, milli qanunvericilikdə yuvenal ədliyyə ilə bağlı bəzi müddəaların əks olunmasına baxmayaraq təcrübədə həmin hüquq normalarına riayət edilmir və həmçinin məhkəmə və hüquq mühafizə orqanları tərəfindən Konvensiyaya və digər beynəlxalq standartlara riayət edilməsi gücləndirilməlidir. Beləliklə də, ölkədə uşaqların ədliyyə sisteminə çıxışını daha da asanlaşdırmaq və belə çıxışın beynəlxalq normaların tələblərinə uyğunlaşdırmaq üçün qanunvericilikdə müəyyən dəyişikliklərin, habelə institusional dəyişikliklərin aparılmasına ehtiyac vardır.

Bu hesabat Avropa Şurasının dəstəyi ilə UNİCEFin uşaq hüquqları və uşaq ədliyyəsi sahəsində geniş təcrübəyə malik olan milli ekspertləri - cənab Zaur Nağıyev və cənab Cavidan Hacızadə, habelə UNİCEFin beynəlxalq məsləhətçisi xanım Gilmet Menyer tərəfindən hazırlanmışdır. Həmçinin qeyd olunmalıdır ki, UNİCEFin Azərbaycan Ofisi hazırki hesabatın ərsəyə gətirilməsi üçün müvafiq tədqiqatların aparılması zamanı əhəmiyyətli töhfələr vermiş, lazımi köməklik göstərmişdir. Bu hesabatın tərtib olunması zamanı göstərdikləri yaxın əməkdaşlığa və yardıma görə UNİCEFin Azərbaycan ofisinin bütün aidiyyəti əməkdaşlarına və xüsusilə də Uşaqların Müdafiəsi üzrə Menecer cənab ***Ramiz Behbudova*** dərin minnətdarlığımızı bildiririk.

## Uşaqların ədliyyə sisteminə çıxışını tənzimləyən beynəlxalq hüquq, normalar və standartlar

Uşaqların ədliyyə sisteminə çıxışı üzrə qanuni rejim geniş spektrə malik olan məburi və qeyri-məcburi xarakterli benəlxalq sənədlərdə öz əksini tapır. Uşaqların ədliyyə sisteminə çıxışı üzrə qanuni rejimini təsbit edən bir neçə beynəlxalq sənəd vardır ki, onlara İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə, "Mülki və Siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, "Qadınlara münasibətdə bütün növ ayrı-seçkiliyin aradan qaldırılması haqqında" Konvensiya, BMT-nin "Uşaq Hüquqları Haqqında Konvensiya"sı ("UHK" və ya "Konvensiya"), BMT-nin "Yuvenal Ədliyyənin İdarə Olunması üzrə Standart Minimum Qaydaları" ("Pekin Qaydaları", BMT-nin 40/33 saylı Qətnaməsi), BMT-nin "Azadlıqdan Məhrum Edilmiş Uşaqların Müdafiəsi haqqında Qaydaları" ("Havana Qaydaları", BMT-nin 45/113 saylı qətnaməsinin 4-cü Əlavəsi), BMT-nin "Cinayət mühakimə icraatında uşaqlarla bağlı hərəkətlərə dair Qaydaları", BMT-nin "Cinayətin Qurbanı və Cinayətin Şahidi olan uşaqların cəlb edildiyi Məhkəmə Məsələləri haqqında Qaydaları", BMT-nin "Məhkum olunmuşlarla davranışa dair Minimal Standart Qaydaları" və BMT-nin "Cinayətin qurbanları və Zorakılığa məruz qalanlarla bağlı Ədliyyənin Ümumi Prinsipləri haqqında Bəyannaməsi" daxildir.

Uşaq Hüquqları Haqqında Konvensiya xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası 1992-ci ildə bu qabaqcıl sənədə qeyd-şərtsiz Tərəf Dövlət olmuşdur və həmin sənədin müddəaları Azərbaycan dövləti üçün məcburi hüquqi xarakterə malikdir. Sözügedən sənədə əsasən Azərbaycan Respublikasından tələb olunur ki, onun milli qanunvericilik rejiminin qeyd olunan sənəddə təsbit olunmuş hüquq və vəzifələrə uyğun olmasını və ədliyyəyə ədalətli, səmərəli və çevik çıxışa təminat verən düzgün və səmərəli qanunvericilik və inzibati prosedurların qəbul olunması, habelə digər müvafiq tədbirlərin görülməsini təmin etsin.

Baxmayaraq ki, beynəlxalq sənədlərin hamısı Azərbaycan Respublikası üçün məcburi xarakterə malik deyil, UHK-də nəzərdə tutulmuş prinsipləri daha müfəssəl tənzim edən və tamamlayan bu Qaydalar milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması üçün faydalı və praktiki əhəmiyyətə malikdir.

Uşaq Hüquqları Komitəsinin (UH Komitəsi) Ümumi Şərhləri, xüsusilə də 10 nömrəli Ümumi Şərhi də yuvenal ədliyyənin UHK-yə uyğunlaşdırılmasının idarə edilməsi ilə bağlı Tərəf Dövlətlərin səyləri ilə əlaqədar olaraq rəhbərlik və tövsiyə mənbəyi kimi qeyd olunmalıdır.

Yetkinlik yaşına çatmayanların mülki sahədə olan hüquqları isə BMT-nin Ümumdünya insan hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar, eləcə də İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktlar, 1953-cü il "İnsan Hüquqları və Əsas Azadlıqları üzrə Avropa Konvensiyası", BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolu, BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası və həmin Konvensiyanın "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolu, Beynəlxalq Əmək Təşkilatının Məcburi və ya İcbari Əmək haqqında 1930-cü il Konvensiyası, habelə "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" 1993-cü il Konvensiyası və "Əlillərin Hüquqlarının Qorunması haqqında" 2006-cı il Konvensiyası kimi beynəlxalq sənədlərdə təsbit olunmuşdur. Cari hesabat üzrə tədqiqatın aparılmasında əsasən UHK-də nəzərdə tutulmuş təməl prinsiplər qiymətləndirilsə də, digər beynəlxalq sənədlərin müddəalarına da əksər hallarda istinad edilmişdir. Bunlardan başqa, İnsan Hüquqları və Əsas Azadlıqları haqqında Avropa Konvensiyası və Avropa Şurası tərəfindən qəbul olunmuş aidiyyəti sənədlər kimi uşaqların ədliyyə sisteminə çıxışı ilə bağlı əhəmiyyətli müddəaları özündə əks etdirən və regional səviyyədə qəbul olunmuş qaydalar, qətnamələr və sənədlər də mövcuddur.

## *I. CİNAYƏT VƏ İNZİBATİ HÜQUQ SAHƏSİNDƏ UŞAQLARIN ƏDLİYYƏ SİSTEMİNƏ ÇIXIŞI*

Cinayət və inzibati hüquq sahəsi üzrə uşaqların hüquqları əsasən BMT-nin Uşaq Hüquqları Konvensiyasında (bundan sonra "Konvensiya" və ya "UHK") öz əksini tapmışdır. Həmin Konvensiyanın 37 və 40-cı maddələri xüsusi olaraq cinayət prosesinə şübhəli şəxs, təqsirləndirilən şəxs, zərərçəkmiş və şahid qismində cəlb edilmiş yetkinlik yaşına çatmayanların təmin edilməli olduğu və üzv dövlətlərin üzərinə öhdəlik kimi qoyulmuş ən əsas hüquq və prinsipləri müəyyən edir. Konvensiyanın 39-cu maddəsi əlavə olaraq hər hansı formada təhqirə, etinasızlığa, istismara və zorakılığa məruz qalan uşaqlara yardım edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir.

Bu hesabat üzrə tədqiqatın həyata keçirilməsi zamanı həmin təməl hüquq və prisniplərin əksəriyyəti təhlil edilmiş, onların milli qanunvericiliyə uyğunluğu məsələsi şərh edilmişdir. Qeyd edək ki, UHK ilə yanaşı yuxarıda qeyd olunmuş digər Standart və Qaydaların da müvafiq normalarına müraciət edilmiş, adekvat olan normalar kompleks şəklində təhqiq olunmuşdur.

Ümumi mənada, beynəlxalq hüquqa əsasən formal hüquqi öhdəlikləri təqdim etmədən yuvenal ədliyyə haqqında spesifik qanunun qəbul olunmasının özü müsbət irəliləyiş ola bilər. Höhumət məsələnin öz hüquq sistemi daxilində spesifik və adekvat olaraq həlli ilə bağlı öz niyyətini bildirə bilər ki, bu da uşaqların xeyrinə dövlət tərəfindən mühüm öhdəliyin olmasına dəlalət edə bilər. Ayrıca qanunun qəbul olunması aidiyyəti şəxslərin hamısının fikirlərinin uşaq hüquqları məsələsinə yönləndirmələrinə imkan verə bilər.

## A. ÜMUMİ PRİNSİPLƏR

### 1. Ayri-seçkiliyə yol verilməməsi

Konvensiyanın 2-ci maddəsində tələb kimi müəyyən edilmişdir ki, "İştirakçı dövlətlər uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidələrindən, milli, etnik və ya sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğum şəraitindən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən, onların yurisdiksiyası daxilində hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onları təmin edirlər.

Azərbaycan RespublikasınınKonstitusiyasının 25-ci maddəsinə əsasən, hər kəs qanun və məhkəmə qarşısında bərabərdir. Bundan əlavə, "Uşaq Hüquqları haqqında" Qanunun 6-cı maddəsinə əsasən bütün uşaqlar bərabər hüquqlara malikdirlər və uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin

sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Lakin Azərbaycan dövləti tərəfindən təqdim edilmiş sonuncu hesabatın təhlili zamanı uşaq hüquqları Komitəsi həssas vəziyyətlərdə uşaqların, xüsusilə də azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və əlil olan, valideyn himayəsindən məhrum olmuş və iqtisadi cəhətdən əlverişsiz şəraitdə olan ailələrdən olan uşaqların tez-tez ayrı seçkiliyə məruz qalması barədə öz narahatlığını bildirmişdir.

## 2. Uşağın ən yaxşı mənafeləri

UHK-nin 3(1)-ci Maddəsində qeyd edilir ki, ***"Uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir, istər bu tədbirlər sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr tərəfindən görülsün, istərsə də məhkəmələr, inzibati və ya qanunvericilik orqanları tərəfindən".***

"Uşaq Hüquqları haqqında" Qanunun 5-ci maddəsinə əsasən, Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar.

Uşaq Hüquqları Komitəsi Azərbaycan Respublikasının qanunvericiliyində uşağın ən yaxşı mənafelərinə istinad olunduğunu qeyd edərək, Tərəf Dövlətdə uşağın ən yaxşı mənafeləri prinsipinin qeyri-adekvat şəkildə tətbiq olunması ilə bağlı öz narahatlığını bildirmişdir. Məhkəmə prosesləri kontekstində Komitə "uşaqların perpektivlərinin və ən yaxşı mənafelərinin anlaşılması və təmin edilməsi ilə bağlı hüquq mütəxəssisləri arasında müvafiq bacarıqların çatışmadığını" vurğulamışdır. Komitə Tərəf Dövləti uşağın ən yaxşı mənafeləri prinsipinin uşaqlara aid olan və təsir edən bütün qanunvericilik, inzibati və məhkəmə prosedurlarına, habelə bütün siyasətlərə, proqramlara və layihələrə müvafiq şəkildə daxil edilməsi və davamlı olaraq tətbiq edilməsinin təmin edilməsi məqsədi ilə səylərini gücləndirməyə çağırmışdır. Bütün məhkəmə və inzibati qətnamə və qərarların hüquqi cəhətdən əsaslandırılması da müvafiq olduğu şəkildə bu prinsipə söykənməlidir."

Çox mühüm bir prinsip olmasına baxmayaraq, faktiki olaraq milli qanunvericiliyin heç bir müddəası "uşağın ən yaxşı mənafeləri" prinsipinə anlayış verməmiş, onu müəyyən etməmişdir. Müvafiq orqanlar tərəfindən qarşılaşa bilinəcək problemləri nəzərə alaraq, **uşaq ilə bağlı qərar qəbul edilərkən nəzərə alınmalı olan məzmunları, faktları və halları sadalayan bir normanın daxil edilməsi məsləhət olunur.**

## 3. Ölüm və azad edilmək imkanı nəzərdə tutulmayan ömürlük azadlıqdan məhrumetmə cəzalarının tətbiq edilməsinin qadağan olunması

UHK-nin 37(a) maddəsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 6(5)-ci maddəsi və Pekin Qaydalarının 17.2-ci qaydası cinayət törətmiş və yaşı 18-dən az olan uşaqların ölüm cəzasına məhkum edilməsini qadağan edir. UHK-nin 37(a) Maddəsində xüsusi olaraq nəzərdə tutulmuşdur ki, Konvensiya dövlətləri öz öhdələrinə götürürlər ki, ***"18 yaşına çatmamış şəxslər tərəfindən törədilmiş cinayətlərə görə nə ölüm cəzası nə də azad edilmək imkanı nəzərdə tutulmayan ömürlük həbs cəzası təyin olunmasın".*** Bu baxımdan Komitə qəti şəkildə tövsiyə etmişdir ki, ömürlük azadlıqdan məhrum etmənin bütün formaları ləğv edilsin.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra "Cinayət Məcəlləsi" adlandırılacaq) 57.2-ci maddəsi cinayət törədərkən on səkkiz yaşı tamam olmamış şəxslərə ömürlük azadlıqdan məhrumetmə cəzasının təyin edilmədiyini təsbit edir. Həqiqətən də, əgər Konvensiyanın müvafiq maddəsinin mətninə fikir versək görərik ki, Konvensiya yalnız "azad edilmək imkanı nəzərdə tutulmayan" öümrlük azadlıqdan məhrumetmə cəzasını qadağan edir. Bu baxımdan milli cinayət qanunu daha humanist mövqe nümayiş edtirərək azad edilmək imkanı nəzərə tututulan ömürlük azadlıqdan məhrum etmə cəzasının da tətbiqinin qadağan olunmasını təmin etmişdir.

## B. HƏBS VƏ MƏHKƏMƏYƏ QƏDƏR İCRAAT

Konvensiyanın 37(b) bəndində nəzərdə tutulmuşdur ki, ***"Uşağın həbsə alınması tutulması və ya həbs cəzası çəkməsi qanuna uyğun olaraq həyata keçirilir və bunlar da son tədbir kimi və bunlar da mümkün olan qədər daha qısa müddətdə və qaydada həyata keçirilir".*** Bundan başqa artıq qeyd etdiyimiz kimi, BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycan dövlətinə verdiyi tövsiyyələrdə də ***"tutulmanın, həbsə alınmanın və həbs cəzası çəkmənin ən son tədbir kimi istifadə olunması prinsipinin təmini məqsədi ilə bunlara, yəni şəxsin azadlığının məhdudlaşdırılması və ya azadlıqdan məhrum edilməsi kimi məcburiyyət tədbirlərinə alternativlər tətbiq etməklə nail olmaq"*** məsləhət görülmüşdür.

Beynəlxalq hüquq uşaqların həm onlara ittiham elan olunmasından sonra və məhkəmə istintaqını gözləyənədək, həm də istintaq zamanı ona ittiham elan olunmazdan öncə tutulması hallarını ciddi şəkildə məhdudlaşdırır. Belə tutulmanın tətbiq edilməsinə yalnız ən son tədbir kimi, ən qısa müvafiq müddət ərzində və istisna hallarda icazə verilir. Mümkün olduğu halda, məhkəməyədək icraat zamanı tutulmadan qaçılmalıdır və hakimlər buna alternativ tədbirləri nəzərə almalıdırlar. Əgər uşağa formal olaraq ittiham elan olunması və onun işinin məhkəmə baxışına göndərilməsi barədə qərar qəbul olunarsa məhkəmə və ya digər vəzifəli şəxs və ya orqan şəxsin azad edilməsi məsələsinə təxirəsalınmadan baxmalıdır.

## 1. Həbs, tutulma və ya azadlıqdan məhrum etmənin "son tədbir" kimi və "ən qısa müddətdə" tətbiq edilməsi

UHK tələb edir ki, cinayət törətməkdə ittiham olunan uşaq "ağlabatan" müddət ərzində məhkəmə qarşısına çıxarılmalı və hər hansı gecikmələrə yol verilməməlidir. Müxtəlif beynəlxalq sənədlər demək olar ki, cüzi fərqlərlə eyni terminlərdən istifadə edir lakin, mahiyyət ondan ibarətdir ki, gecikmələrin baş verməsinə yol verilməməlidir. Baxmayaraq ki, məhkəməyə qədərki tutulmanın yalnız son tədbir kimi və "ən qısa müvafiq müddətə" tətbiq edilməsi nəzərdə tutulsa da , "ən qısa müddət" dedikdə hansı müddətin nəzərdə tutulduğu haqqında heç bir müəyyənləşdirici anlayış mövcud deyil. Lakin UH Komitəsi 10 nömrəli Ümumi Şərhində tövsiyə etmişdir ki, uşağa ittiham elan olunmasından öncə məhkəməyə qədərki (məsələn, uşağın barəsində ibtidai istintaq davam etdiyi dövrdə) tutulma (saxlanılma) 30 gündən artıq olmamalıdır.

### a) Cinayət hüququ üzrə

"Uşaq Hüquqları haqqında" Qanuna əsasən tələb olunur ki, yaşı 18-dən az olan hər hansı şəxsin tutulması və ya həbs olunması yalnız qanuni olaraq və istisna hallarda həyata keçirilməli və uşağın valideynləri bu barədə dərhal məlumatlandırılmalıdır. Valideynlərin təxirəsalınmadan məlumatlandırılması ilə bağlı vəzifə həmçinin Cinayət Prosessual Məcəllədə öz əksini tapmışdır.

Cinayət Prosessual Məcəllə təsbit edir ki, cinayət törətməkdə ittiham olunan yetkinlik yaşına çatmayan şəxslərin tutulması "müstəsna hallarda ... və mümkün qədər ən qısa müddətdə tətbiq edilməlidir" və yetkinlik yaşına çatmayan şəxsin ittiham edildiyi cinayət ağır və xüsusilə ağır cinayət olmadıqda tətbiq edilə bilməz. Ağır cinayətlər dedikdə sanksiyasında yeddi il və ondan daha çox azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətlər nəzərdə tutulur. Valideynlərin və ya qanuni nümayəndələrin nəzarəti altına verməklə azad edilmə isə yalnız yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslər barəsində tətbiq edilən alternativ tədbir növüdür.

Milli qanunvericilikdə bəzi müddəaların olması cəzanın təyin edilməsi mərhələsində müvafiq beynəlxalq standartlarda açıqlanmış sözügedən prinsipin müəyyən dərəcədə əks olunduğunu göstərir. Belə ki, Cinayət Məcəlləsinin 59.1.2.-ci maddəsinə əsasən cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi yüngülləşdirici hal hesab olunur ki, nəticə etibarı ilə sonda həmin şəxsə təyin edilən cəzanın daha az müddətdə olmasına birbaşa təsir göstərir. Bundan əlavə, CM-nin 85.4-cü maddəsində qeyd olunur ki, ***"yetkinlik yaşına çatmayan şəxslərə azadlıqdan məhrumetmə cəzası 10 ildən artıq olmamaq şərti ilə təyin edilir".*** Bu da öz növbəsində yetkinlik yaşına çatmış şəxslərə maksimum 15 ilədək təyin edilən eyni cəzanın müddətinə nisbətdə əhəmiyyətli dərəcədə az müddətdir, lakin

yuxarıda qeyd edildiyi kimi UH Komitəsinin diqqətini cəlb etmişdir. Əgər cinayət törətmiş şəxslərə tətbiq edilən cəzanın maksimum müddətinə təsir edən amil kimi onların yaşlarının az olmasının yüngülləşdirici hal kimi qəbul olunması əsaslı şəkildə beynəlxalq normalara uyğundursa, bu zaman qeyd edilməlidir ki, yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərə tətbiq edilən cəzanın müddəti çox guman ki çoxdur, çünki böyüklərə tətbiq edilən müddətdən cəmi 5 il azdır.

Bu səbəbdən də qeyd edilməlidir ki, yetkinlik yaşına çatmayan şəxslərə digər cəza növləri daha az müddətə və daha yüngül şərtlər ilə təyin edilə bilər (AR CM Maddə 85.2, 85.3, 85.4). Bu baxımdan, milli qanunvericilik yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət hüquqi cəza kimi azadlıqdan məhrumetmə cəzasının əvəzinə başqa tədbirlərin tətbiq edilməsi ilə bağlı əhəmiyyətli müddəaları təsbit etmişdir.

Lakin, Konvensiya tərəfindən Tərəf Dövət qismində Azərbaycan Respublikasının üzərinə qoyulmuş, uşaqların daha qısa müddət ərzində tutulması prinsipinə milli qanunvericilikdə tam əməl olunduğunu demək çətindir.

Azərbaycan Respublikasının Cnianyət Prosessual Məcəlləsinin 148.4-cü maddəsinə əsasən ***"Cinayət işinin başlanmasına dair qərar şəxsin tutulduğu andan 24 saat keçənədək qəbul olunmazsa, tutulmuş şəxs dərhal azad olunmalıdır".*** Məcəllənin müvafiq fəslində yetkinlik yaşına çatmayanlar barəsində belə prosessual məcburiyyət tədbirinin daha az müddətdə tətbiq olunması haqqında tələb əks etdirilməmişdir. Yəni, qanunvericilik tutulma zamanı yetkinlik yaşına çatmamış şəxs ilə böyüklər arasında tutulmanın müddəti barəsində heç bir differensasiyaya yol verməmişdir.

Lakin, belə differensasiya prosessual qanunun həbs ilə bağlı olan maddəsində mövcuddur. Belə ki, AR CPM-in 434.2-ci maddəsində göstərilmişdir ki, ***"Yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir"***. Bu səbəbdən də hesab edirik ki, həbsdən başqa yetkinlik yaşına çatmayan şəxsin tutulması ilə bağlı belə müddəa CPM-in müvafiq maddəsində də öz əksini tapmalıdır.

Cinayət Prosessual Məcəllənin 433.2-ci maddəsinə əsasən "yetkinlik yaşına çatmayan şəxs tutulduqda hakim onun azad edilib-edilməməsi məsələsinə dərhal baxmalıdır". Lakin, qanunvericilik belə baxılmanın nə qədər gecikdirilə bilməsi barədə heç bir müddəa nəzərdə tutmur. Bu səbəbdən də hakim tərəfindən belə məsələyə baxılmanın maksimum müddətini aydınlaşdırmaq məqsədi ilə CPM-yə müvafiq dəyişikliklər hazırlanmalıdır..

Yekun olaraq, Cinayət Prosessual Məcəllənin müddəaları bütün şübhəli və təqsirləndirilən şəxslərə tətbiq edilən daha müfəssəl müddəaları ilə birlikdə oxunmalı və nəzərə alınmalıdır. Ümumi qaydaya əsasən işin məhkəmə

araşdırmasına göndərilməsini gözləyənədək bütün təqsirləndirilən şəxslərin həbsi 2 aydan artıq davam edə bilməz. Lakin bu müddət cinayətin ağırlıq dərəcəsindən asılı olaraq 12 ayadək uzadıla bilər.

*Tövsiyə*

***-Cinayət Prosessual Məcəlləyə ediləcək dəyişikliklərə yetkinlik yaşına çatmayan şəxslərin tutulmasının dəqiq müddəti, habelə hakim tərəfindən belə şəxslərin azad edilməsi məsələsinə baxılmanın gecikdirilməsinin maksimum müddəti daxil edilməlidir;***

***- Yetkinlik yaşına çatmayan şəxslərin Cinayət Məcəlləsinin 85.5-ci maddəsində nəzərdə tutulmuş azadlıqdan məhrum edilməsi müddəti azaldılmalıdır.***

b) **İnzibati hüquq üzrə**

Lakin, milli qanunvericilikdə ***"tutulmanın mümkün qədər daha qısa müddətdə tətbiqi"*** prinsipi inzibati xəta törətmiş yetkinlik yaşına çatmayan şəxslərin hüquqları həddində öz əksini tapmışdır. Belə ki, 16 yaşı tamam olmuş fiziki şəxs inzibati məsuliyyətə cəlb oluna bilər (Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin ("İXM") 15.1-ci maddəsi). Qanunvericilik inzibati həbsin yetkinlik yaşına çatmayanlara tətbiq edilməsini qadağan edir (İXM-nin 30.2-ci maddəsi). Yetkinlik yaşına çatmayanların azadlıqlarının məhdudlaşdırılması ilə bağlı digər bir məcburiyyət tədbiri olan "gətirilmə" də azyaşlılara tətbiq edilmir.

Lakin, İnzibati Xətalar Məcəlləsi inzibati tutmanın yetkinlik yaşına çatmayanlara tətbiq edilməməsi və ya tətbiqi zamanı daha az müddətin müəyyən edilməməsi ilə əlaqədar heç bir müddəanı özündə əks etdirmir. Nəticədə əhəmiyyətli ziddiyyət yaranır. Belə ki, qanunvericilik yetkinlik yaşına çatmayanlarla bağlı "gətirilməni" qadağan edir, lakin inzibati tutmanı nə qadağan edir, nə də müddətini müəyyən edir. Bu isə o deməkdir ki, azyaşlılar da böyüklərlə eyni müddətdə inzibati tutmaya məruz qalırlar. Qeyd edilməlidir ki, İXM-də isə inzibati tutma bəzi hallarda 3 gün ola bilər. Bəhs olunan müddəalardan aydın olur ki, UHK-nin müvafiq tələbi inzibati tutmanın tətbiqi zamanı milli qanunvericilikdə nəzərə alınmamışdır. Bu uyğunsuzluğun aradan qaldırılması üçün İXM-nin 399-cu maddəsində (inzibati qaydada tutma) ya yetkinlik yaşına çatmayanlara tutmanın tətbiq olunmaması ya da tutmanın maksimal müddəti nəzərdə tutulması məqsədəmüvafiqdir.

2. **İstintaq**

Cinayət Prosessual Məcəllədə nəzərdə tutulmuşdur ki, " Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaq imkan daxilində müvafiq ibtidai istintaq

orqanlarının xüsusi bölmələri və ya yetkinlik yaşına çatmayan şəxslərlə müvafiq iş təcrübəsinə malik olan şəxslər tərəfindən aparılmalıdır". İstintaq işi yekunlaşdırdıqdan sonra iş məhkəməyə göndərilir və orada yekun qərar çıxarılır. Qeyd olunan prosedur cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxs cinayət məsuliyyətinə cəlb etmə yaşına çatdıqda həyata keçirirlir. Əgər şəxsin yaşı cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddindən (14 yaşdan) azdırsa bu zaman onun barəsində iş cinayət təqibini həyata keçirən təhqiqat və ya istintaq orqanı müvafiq materialları topladıqdan sonra *şəxslərin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsi məqsədilə cinayət prosesini həyata keçirən orqan tərəfindən 3 gün müddətində yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilir ("Komissiya"). (AR CPM-in 235-1.1.-ci maddəsi)* Komissiya isə müvafiq materiallarla tanış olduqdan sonra materialları müvafiq yer üzrə birinci instansiya məhkəməsinə göndərir. İnzibati xəta törətmiş yetkinlik yaşına çatmayan şəxslər barəsində müvafiq materiallar da qərarın qəbul olunması üçün Komissiyaya göndərilir.

Beynəlxalq standartlara uyğun olaraq, "Uşaq Hüquqları Haqqında" Qanunun 42-ci maddəsinə əsasən "uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr Tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir" və "uşaqların saxlandığı tərbiyə müəssisələrinin müdiriyyəti onların vicdanlı və layiqli vətəndaş kimi yetişməsi, müvafiq təhsil və peşə vərdişləri əldə etməsi üçün müvafiq şərait yaratmalıdırlar".

Bundan başqa, Cinayət Prosessual Məcəllə istintaqların başa çatması müddətlərini də müəyyən etmişdir. İlkin araşdırmanın başa çatması ilə bağlı müddət 10 gündür; cinayət işi üzrə ümumi istintaqın başa çatması üçün müddət isə cinayətin ağırlıq dərəcəsindən asılı olaraq 2 aydan 4 aya qədərdir. Müdafiə tərəfindən yaranan gecikmələr nəzərə alınmır. Cinayət Prosessual Məcəllənin 218.10-cu maddəsinə əsasən, cinayət işi üzrə ibtidai istintaq hər bir halda böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində ittiham üzrə 6 (altı) aydan çox olmayan müddətdə, az ağır cinayətin törədilməsində ittiham üzrə 9 (doqquz) aydan çox olmayan müddətdə, ağır cinayətin törədilməsində ittiham üzrə 12 (on iki) aydan çox olmayan müddətdə, xüsusilə ağır cinayətin törədilməsində ittiham üzrə — 18 (on səkkiz) aydan çox olmayan müddətdə başa çatdırılmalıdır. Təqsirləndirilən şəxsin azadlıqdan məhrum edilib-edilməməsindən asılı olmayaraq bu müddətlər böyüklərə tətbiq edildiyi kimi, yetkinlik yaşına çatmayanlara da eyni olaraq tətbiq edilir.

### 3. Cinayət məsuliyyətinə cəlb olunmağa imkan verən yaş həddi

Xüsusilə qeyd edilməlidir ki, cinayət məsuliyyətinə cəlb olunmaq üçün yaş həddi üzrə yetkinlik yaşına çatmayanlar milli qanunvericiliyə əsasən iki qrupa

bölünür: a) cinayət törətdiyi zaman 14 yaşı tamam olmuş lakin 16 yaşına çatmamış şəxslər; b) cinayət törətdiyi zaman yaşı 16-dan çox olan lakin, 18 yaşına çatmamış şəxslər.

Yuxarıda nəzərdə tutulmuş yaşa görə bölgü əsas beynəlxalq sənədlərə və Avropa standartlarına uyğundur. Milli qanunvericilik eyni zamanda BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasında nəzərdə tutulmuş olan (Maddə 40, bənd 3, yarımbənd (a)) standarta uyğundur ki, bu standarta əsasən İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş uşaqlar barəsində elə minimum yaş həddi müəyyən etməlidirlər ki, bu həddən aşağı yaşda uşaqlar cinayət qanunvericiliyini pozmağa qadir sayılmırlar.

Belə ki, 16 yaş cinayət məsuliyyətinə cəlb olunmağa imkan verən yaş həddidir. 18 yaş isə şəxsin artıq böyük hesab olunması üçün əsas verən yaş həddidir. 16 və ya 17 yaşı tamam olmuş şəxslər Cinayət Məcəlləsində nəzərdə tutulmuş istənilən cinayət əməlinin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Yaşı 14 və ya 15 olan şəxslər isə yalnız Cinayət Məcəlləsinin 20.2-ci maddəsində nəzərdə tutulmuş olan və qəsdən adam öldürmə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurma, adam oğurlama, zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, oğurluq, soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etmə və ya zədələmə, terrorçuluq, adamları girov götürmə, ağırlaşdırıcı hallarda xuliqanlıq, odlu silahı, döyüş sursatı, partlayıcı maddələri və qurğuları talamaq və ya hədə-qorxu ilə tələb etmək, narkotik vasitələri və ya psixotrop maddələri talamaq və ya hədə-qorxu ilə tələb etmək kimi cinayət əməlləri daxil olan ictimai təhlükəli əməlləri törətdikdə cianyət məsuliyyətinə cəlb oluna bilərlər.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə yaşı 14 az olan cinayət törətmiş şəxslərə habelə Cinayət Məcəlləsinin 20.2-ci maddəsində sadalanan ağır cinayətlərdən başqa cinayət törətmuiş uşaqlara şamil edilir. Bu Əsasnamədə nəzərdə tutulmuş olan bəzi müddəalar "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunda da öz əksini tapmışdır. Qanunun 5(21)-ci maddəsinə əsasən Komissiyaya səlahiyyət verilir ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddindən aşağı olan "cinayət törətmiş yetkinlik yaşına çatmayanlar haqqında müvafiq dövlət orqanlarından (məs, polis) təqdim edilmiş materiallara baxsın" . Komissiyaların həmçinin, qanuna riayət ruhunun təbliği və yeni cinayətlərin qarşısının alınması məqsədi ilə "tərbiyəvi xarakterli tədbirlər" tətbiq etmək imkanı da vardır. Xəbərdarlıq, valideynlərin nəzarəti altına vermə kimi qeyd olunan belə tədbirlərin bəziləri azadlıqdan məhrumetmə xarakterinə malik olmayan tədbirlərdir.

Bu Qanunun bir müddəasına əsasən inzibati xəta törətmiş uşaqların valideynlərinin icazəsi ilə "açıq tipli xüsusi təlim müəssisəsi"nə yerləşdirilməsinə icazə verilir. Digər müddəa isə Yetkinlik yaşına çatmayanların işləri üzrə Komissiyalara səlahiyyət verir ki, ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxslərin "qapalı tipli xüsusi təlim müəssisəsi"nə yerləşdirilməsi üçün məhkəməyə müraciət etsin. Qeyd olunan prinsiplərin hər ikisi, mahiyyət etibarı ilə yuvenal ədliyyə ilə bağlı beynəlxalq standartlara uyğundur.

"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunun böyük ictimai təhlükə törətməyən, lakin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxslərin xüsusi təlim müəssisələrində yerləşdirilməsi ilə bağlı olan 9.0.6-cı maddəsinin tələbi aydın deyil. Əgər bu Qanun Komissiyalara belə uşaqların valideynlərin razılığı və məhkəmə baxışı olmadan azadlıqdan məhrum edilməsi səlahiyyəti verirsə, bu beynəlxalq standartlar uyğun hesab edilə bilməz. Baxmayaraq ki, xüsusi təlim müəssisələri açıq müəssisə kimi təsnifləşdirilir, müvafiq beynəlxalq hüquqa əsasən belə müəssisələrdə yerləşdirilmə azadlıqdan məhrumetmə hesab olunur.

### 4. Cinayət təqibinə alternativ olan tədbirlər

Azərbaycanda, polisin sübutların cinayətin törədildiyini təsdiq edən işləri prokurora təqdim etməməsi ilə bağlı çox məhdud səlahiyyətləri vardır. Oxşar olaraq, prokurorun məhdud səlahiyyəti vardır ki, şübhəlinin müəyyən cinayəti törətməsinə dəlalət edən sübutlar olduğu halda iş üzrə cinayət təqibini həyata keçirməsin. Lakin, əgər təqsirkar şəxs səmimi peşmançılıq çəkərsə, təqsirini könüllü boynuna alarsa, zərərçəkmişlə barışarsa və ona vurulmuş ziyanı ödəyərsə və ya artıq cəmiyyət üçün təhlükə törətmədiyi müəyyən olunarsa cinayət işinin istintaqı dayandırıla bilər. Cinayət işi üzrə istintaq, qeyd olunan hallardan biri mövcud olduqda, lakin hər bir halda yalnız cinayət əməli ilk dəfə törədildikdə və törədilmiş cinayət böyük ictimai təhlükə törətməyən əməl hesab olunduqda dayandırıla bilər. Prokuror cinayət işinin başlanmasından sonra sözügedən əsaslarla cinayət işinə xitam verə bilər. Bundan başqa, təqsirkar ilə zərərçəkmiş şəxs barışdıqda məhkəmənin səlahiyyəti vardır ki, cinayət işinin məhkəmə istintaqını dayandırsın. Eyni şərtlər prokurorun və ya məhkəmənin cinayət işinin davam etdirilməsini dayandırmasına və ya işə xitam verilməsinə əsas ola bilər.

Istənilən vasitələrlə cinayət təqibini həyata keçirmək əvəzinə UHK-də nəzərdə tutulmuş əsas məqsədlərə istənilən vəziyyətlərdə yönləndirmə tədbirləri və ümumi olaraq alternativ prosedurlar vasitəsilə də səmərəli və effektiv şəkildə nail olmaq olar. Bu hal prokurorun səlahiyyətlərinə digər yönləndirmə tədbirlərini də daxil etməyə rəvac verir. Nəzərə almaq lazımdır ki, yetkinlik yaşına çatmayana qarşı cinayət təqibi üzrə hərəkətlərə başlamaqdan imtina etmək haqqında qərar, bir və ya

bir neçə öhdəliyin yerinə yetirilməsi şərti ilə yetkinlik yaşına çatmayan şəxsin, onun valideynləri, valideynlərini əvəz edən şəxsslər və ya qanuni nümayəndələrinin razılığı əsasında prokuror tərəfindən qəbul oluna bilər. Lakin, bəzi hallarda və xüsusən də valideynlər və ya qanuni nümayəndələr ilə maraqlar münaqişəsi baş verdiyi halda yetkinlik yaşına çatmayan şəxsin özünün razılığı kifayət hesab olunmalıdır.

Cinayət və ya digər inzibati xəta törətmiş yetkinlik yaşına çatmayan şəxslərin sosial bərpasını təmin etmək, onların məhbus həyatından əldə edə biləcəkləri neqativ amillərin qarşısını almaq, habelə gələcəyi qurulmaqda olan uşağın "ləkələnməsinə" yol verilməməsini təmin etmək üçün İxtisaslaşmış Reabilitasiya Mərkəzinin yaradılması və onun fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi bu məsələlərin həlli üçün daha effektiv olar. Ümumiyyətlə, beynəxalq standartlara əsasən cinayət və ya inzibati xəta törətməkdə təqsirli bilinən uşaqların sosial yönümlü bərpa, tərbiyələndirmə müəssisələrinə yönləndirilməsi onların cinayət və inzibati təqib proseslərindən keçmələrindən daha üstün tutulur. Belə bir prinsip UHK-nin 40(3)–cü maddəsində belə nəzərdə tutulmuşdur: **"Zəruri olan hallarda insan hüquqlarını və təminatlarını tamamilə gözləmək şərtilə, məhkəmə təhqiqatından istifadə etmədən belə uşaqlarla rəftar üçün tədbirlər görülməlidir".**

*Tövsiyələr:*

*Aşağıda nəzərdə tutulmuş tədbirlərin görülməsi tövsiyə olunur:*

- ***Yetkinlik yaşına çatmayan barəsində həm cinayət təqibi zamanı tutulmanın və həbs edilmənin şərtləri dəqiqləşdirilməli, həm də məhkəmənin cəza təyin etməsi zamanı qərar qəbul edilməsi ilə bağlı müvafiq konkret göstərişlər qanunvericilikdə öz əksini tapmalıdır;***
- ***Qanunvericilikdə yetkinlik yaşına çatmayanların tutulmasını qadağan edən müddəa öz əksini tapmalı və ya inzibati qaydada tutmanın müddəti İXM-nin 399-cu maddədə(İnzibati qaydada tutma) öz əksini tapmalıdır;***
- ***Cinayət Prosessual Məcəllədə yetkinlik yaşına çatmayan şəxslərin işləri ilə əlaqədar istintaqın aparılması müddəti fərqləndirilməli və bu müddətlər böyüklərə tətbiq olunan müddətlərə nisbətən azaldılmalıdır;***
- ***Yetkinlik yaşına çatmayanları cəzalandırmaq meyllərindən yayınmaq və onların daha çox sosial bərpasına yönəldilməsi tədbirlərinin həyata keçirilməsi üçün sosial yönümlü İxtisaslaşmış Reabilitasiya Mərkəzinin (bundan sonra "Mərkəz" adlandırılacaq) yaradılması məqsədəmüvafiqdir. Mərkəz yetkinlik yaşına çatmayan şəxslərin cinayət və inzibati xəta törətməsi nəticəsində son tədbir kimi onların azadlıqdan məhrum edilməsi və azadlıqlarının məhdudlaşdırılması xüsusiyyətlərinə malik olan cəzalar əvəzinə sosial yönümlü bərpaedici və tərbiyələndirici tədbirlərin tətbiqi ilə islah olunmasına yönəldilməsini təmin etməlidir;***

- *Yetkinlik yaşına çatmayanların barəsində qəbul edilən son qərar zamanı onların belə mərkəzlərə yönləndirilməsi üçün qanunvericilikdə aidiyyəti dövlət orqanlarının səlahiyyətləri öz əksini tapmalıdır. Cinayət və inzibati xətalar törətmiş yetkinlik yaşına çatmayanlar və ya uşaqlar barədə qərarlar Komissiya və məhkəmələr tərəfindən qəbul olunur. Buna müvafiq olaraq Komissiyanın əsasnaməsində və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində qərar qəbul edən orqanların müvafiq səlahiyyətini təsdiq edən normalar öz əksini tapmalıdır;*
- *Komissiyanın yetkinlik yaşına çatmayanların işlərinə baxılması zamanı yerinə yetirilən prosedurların formallığının aradan qaldırılması və iş yükü nəzərə alınmaqla lazım olduqda əməkdaşların sayının artırılması barədə müvafiq orqanlar tərəfindən həm qanunvericilik səviyyəsində və həm də təcrübədə müvafiq dəyişikliklərin edilməsi həyata keçirilməlidir;*
- *Mövcud qanunvericilik aktlarında (məs: Cinayət Məcəlləsində, Cinayət Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində və Komissiyanın əsasnaməsində) belə mərkəzlərə yönləndirilmənin konkret halları dəqiq göstərilməlidir;*
- *Hakimlərin və qərar qəbul edən digər orqanların (məsələn, Komissiyanın) azadlıqdan məhrumetmə əvəzinə tətbiq olunacaq tərbiyəvi xarakterli məcburi tədbirlərin və ya cəza əvəzinə yetkinlik yaşına çatmayanların Mərkəzə yönləndirilməsinin daha effektiv olacağına inamın artırılması üçün zəruri tədbirlər görülməlidir.*

## C. MƏHKƏMƏ İCRAATI

Uşaq Hüquqları Konvensiyasının 40-cı maddəsi Konvensiyaya tərəf dövlətlərin cinayət törətmiş və ya cinayət törətməkdə ittiham olunan yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının müdafiəsi üçün müəyyən təminatları nəzərdə tutur. Belə təminatlar həmçinin Pekin Qaydalarının 7-ci maddəsində də nəzərdə tutulmuşdur. Həmin maddədə göstərilmişdir ki, "Təqsirsizlik prezumpsiyası, irəli sürülən ittihamlar barədə məlumatlandırılmaq hüququ, ifadə verməkdən imtina etmək hüququ, vəkil tutmaq, valideyn və ya qəyyumun iştirak etmək hüququ, yuxarı instansiyalara apelyasiya şikayət etmək hüququ" dövlət tərəfindən təmin edilməlidir.

### 1. Təqsirsizlik Prezumpsiyası

Uşaq Hüquqları Haqqında Konvensiyanın 40(b) maddəsində qeyd olunmuşdur ki, təqsiri qanunla nəzərdə tutulmuş qaydada sübuta yetirilməmiş cinayət törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən yetkinlik yaşına çatmayan hər bir şəxs günahsız hesab olunur. Bu prinsip həm Azərbaycan Respublikasının Konstitusiyasında həm də qanunvericiliyində öz əksini tapmışdır. AR

Konstitusiyasının 63-cü maddəsində təsbit olunmuş bu təməl prinsip müvafiq Məcəllədə (CPM-in 21-ci maddəsi) də aşağıdakı formada müəyyən edilmişdir:

- Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. - Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. - Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır. - Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

Təqsizrsizlik prezumpsiyası prinsipinin Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında nəzərdə tutulmuş olduğu aydın görünür. Bu prinsipə əsasən Azərbaycanda məhkəmənin hökmünə əsasən təqsirli bilinməyən heç kim cinayət törətməkdə təqsirli hesab oluna bilməz. Lakin, bu prinsip bir çox hallarda pozulur. Belə ki, bir sıra hallarda təqsir qanunla nəzərdə tutulan qaydada sübuta yetirilmədikdə belə məhkəmə şəxsin barəsində ittiham hökmü çıxarır. Bundan əlavə, şəxsin təqsirliliyini tam sübuta yetirmək üçün sübutlar toplanılmadıqda belə yetkinlik yaşına çatmayanların ziyanına olan şübhələr onun xeyrinə həll edilmir.

Təqsirsizlik prezumpsiyasından irəli gələn digər bir məsələ şəxsin məhkumluğunun ödənilməsindən sonra məhkumluqdan doğan bütün məhrumiyyətlərdən şəxsin azad olmasıdır. Cinayət Məcəlləsinin 83.6-cı maddəsində bu müddəa belə əks olunmuşdur: “Məhkumluğun ödənilməsi və ya götürülməsi məhkumluqla bağlı olan bütün hüquqi nəticələri ləğv edir”. Lakin, məhkəmənin hökmü ilə məhkum edilmiş şəxslər (bura ən yüngül cəza növü olan cərimə də daxildir) öz cəzalarını çəkdikdən və məhkumluqları ödənildikdən sonra belə, məhkum olunmalarından irəli gələn hüquqi nəticələr ləğv edilmir. Belə ki, nə zamansa məhkum edilmiş şəxsin məhkumluğu haqqında məlumatlar AR Daxili İşlər Nazirliyinin məlumat bazasında saxlanılır və həmin şəxsin sosial reabilitasiyasına çətinliklər törədir. Misal üçün qeyd edək ki, yetkinlik yaşına çatmamış hər hansı bir şəxs cinayət törədirsə və cəzanı çəkdikdən və məhkumluğu ödənildikdən və ya götürüldükdən sonra məhbus həyatından normal cəmiyyətə qayıtmaq istəyirsə bir sıra hallarda işəgötürənlər həmin şəxsin əvvəllər məhkum olub-olmaması məsələsini sorğu ilə AR DİN-dən öyrənə bilirlər. Əgər şəxs məhkum olmuşdursa və hətta

məhkumluğu illər öncə ödənilmişdirsə belə, həmin şəxsin işə qəbulundan və ya müvafiq dövlət orqanlarında təyinatlı və ya seçkili vəzifə tutmasından imtina edilir. Beləliklə də, həmin şəxsin cəmiyyətə normal inteqrasiyasının və onun cəmiyyətdə faydalı rolunu yerinə yetirməsinin qarşısı alınmış olur. Hətta onu da qeyd etməliyik ki, məhkumluqla bağlı belə məhrumiyyətlər bəzi dövlət və özəl hüquqi şəxslərin daxili prosedur qaydalarında da öz əksini tapır.

***Tövsiyələr***

***Belə neqativ halların aradan qaldırılması üçün aşağıdakılar tövsiyə olunur:***

- ***DİN-in məlumat bazasından iformasiyanın çıxarılmasının məhdudlaşdırılması;***
- ***Məhkumluq haqqında məlumatlardan cinayət törətməkdə təqsirli bilinən şəxsin məsuliyyətinin differensasiyası məqsədi ilə yalnız məhkəmələr tərəfindən istifadə oluna bilməsi üçün qanunvericiliyə müvafiq düzəlişlərin edilməsi;***
- ***Azərbaycan Respublikasının yurisdiksiyasında olan dövlət, bələdiyyə və özəl müəssisələri yetkinlik yaşına çatmayanların "keçmiş məhkumluqları" ilə bağlı əngəl və maneələr yaratmalarından çəkindirmək üçün müvafiq addımların atılması, bu məqsədlə, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi və ona düzəlişlərin edilməsi zəruridir.***

## 2. Uşaqlarla bağlı həssas prosedurlar

Konvensiyanın 40.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, ***"İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hisslərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alır".***

Əfsuslar olsun ki, uşaq ilə Konvensiyanın 40.1-ci maddəsində nəzərdə tutulmuş formada rəftar edilməsi ilə bağlı Cinayət Prosessual Məcəllədə heç bir müddəa öz əksini tapmamışdır. Baxmayaraq ki, Cinayət Prosessual Məcəllənin 432.3-cü maddəsində qeyd edilmişdir ki, "İbtidai istintaq zamanı yetkinlik yaşına çatmayan şəxslə müstəntiq arasında əlaqələr cinayət işinin hallarının lazımi qaydada nəzərə alınması, yetkinlik yaşına çatmayan şəxsə hörmətlə yanaşılması, yetkinlik yaşına çatmayan şəxsin rifahına kömək edilməsi və ona ziyan vurulmasına yol verilməməsi şərtilə həyata keçirilir", Məcəllədə uşaqla ləyaqət və mənlik hisslərinin inkişafına kömək edən, onda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirən və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və

cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alan qaydada rəftar edilməsini tələb edən heç bir müddəa öz əksini tapmamışdır.

*Tövsiyə*

- ***Bu nöqteyi nəzərdən, Məcəllənin və Konvensiyanın yuxarıda qeyd olunan prinsipləri ümumiləşdirilməli və uyğunlaşdırılmalı, habelə istintaq aparan dövlət orqanları və məhkmələr, habelə Komissiya tərəfindən görülməli olan və bu prinsiplərdən irəli gələn tədbirlər milli qanunvericilikdə öz əksini tapmalıdır. Fikrimizcə, belə tədbirlərin və addımların əhatə sferası təhsil və cəzaçəkmə müəssisələrinə də şamil edilməlidir.***

## 3. Cinayət prosesində uşaqların hüquqları

Konvensiyanın 40.2(a) maddəsinə əsasən *"**Cinayət qanunvericiliyinin pozulması zamanı milli və beynəlxalq hüquqla qadağan olunmayan hərəkət və ya hərəkətsizliyə görə heç bir uşaq cinayət qanunvericiliyin pozmuş hesab edilməməli, onun pozulmasında müqəssir bilinməməlidir**"*. Cinayət Məcəlləsinin 5.1-ci maddəsində təsbit olunmuşdur ki, ***"Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir"***. Məcəllənin 3-cü maddəsində isə göstərilir ki, ***"yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır".*** Qeyd olunan maddələrdən belə bir nəticə hasil olur ki, cinayət qanununda nəzərdə tutulmuş cinayətlərin hər hansı biri istər yetkinlik yaşına çatmış şəxslər (əgər həmin şəxslər cinayət məsuliyyətinə cəlb olunmağa imkan verən yaş həddinə çatmışlarsa) istərsə də yaşlılar tərəfindən törədildikdə cinayət məsuliyyəti yaradır.

Lakin, bir daha qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 20-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi iki qrupa bölünür. Yetkinlik yaşına çatmayan şəxsin 14 yaşı olduqda yalnız müəyyən cinayət əməllərinə (məsələn, qəsdən adamöldürmə, adam oğurluğu, qəsdən bədənə ağır və ya az ağır xəsarət yetirməyə və s.) görə cinayət məsuliyyəti yaranır. Qalan bütün cinayət tərkibləri üçün cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi 16 yaşdır. Qeyd olunan müddəaları ümumiləşdirərək qeyd edə bilərik ki, yetkinlik yaşına çatmayan şəxslər o halda cinayət məsuliyyətinə cəlb olunurlar ki, onların törətdiyi ictimai təhlükəli əməl Cinayət Məcəlləsində nəzərdə tutulmuş tərkib əlamətlərinin hər hansı birinin və ya bir neçəsinin tərkibinin yaranmasına səbəb olmuş olsun. Bu baxımdan da Konvensiyanın müvafiq tələbi milli qanunvericilikdə tam olaraq öz əksini tapmışdır.

a) **İrəli sürülən ittihamlar barədə uşağın məlumatlandırılmaq hüququ**

Konvensiyanın 40.2(2)-ci maddəsində yetkinlik yaşına çatmayanın iki növ hüququnun təmin olunması nəzərdə tutulmuşdur. Onlardan birinci qrup "şəxsə qarşı irəli sürülən ittihamlar barədə ona dərhal və bilavasitə və ya valideynləri, qanuni nümayəndələri vasitəsilə məlumat verilməsi" hüququdur. Bu hüquq Cinayət Prosessual Məcəllənin 432.4.1-ci maddəsində təsbit olunmuşdur.

Cinayət Prosessual Məcəllənin 224.2-ci maddəsinə əsasən uşağın şəxsiyyətini müəyyən etdikdən sonra müstəntiq ona təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarı elan edir və elan edilən ittihamın mahiyyətini izah etməlidir. Bundan sonra, şəxsə ittihamın elan edilməsi təqsirləndirilən şəxsin və müstəntiqin imzaları ilə qərarda təsdiq edilməlidir. Habelə, 224.3.-cü maddəyə əsasən ittihamı elan etdikdən sonra müstəntiq təqsirləndirilən şəxsə onun bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah etməlidir. Məcəllə təqsirləndirilən şəxslə hörmətlə davranılması, ittiham barədə məlumatlandırılmaq, susmaq və istintaqın məxfiliyi hüququnu təmin edir.

Qeyd olunan müddəalardan aydın olur ki, Konvensiyanın müvafiq tələbi Azərbaycan qanunvericiliyində kifayət qədər geniş şəkildə əks olunmuşdur. Lakin, göstərilən təminatlar praktikada heç də hər zaman beynəlxalq sənədlərdə qeyd olunduğu kimi tətbiq edilmir. Belə ki, bir çox hallarda müstəntiq və ya prokuror yetkinlik yaşına çatmayan şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarla onu tanış edərkən yalnız qərarda həmin şəxsə imza atdırmaqla kifayətlənir və ya CPM-in 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələri barədə ona bildiriş təqdim etməklə həmin hüquqların və vəzifələrin mahiyyətini həmin şəxslərə izah etmir. Təbiidir ki, belə halların qarşısının alınması üçün yetkinlik yaşına çatmayan şəxsə ittiham elan edilərkən onun müdafiəçisinin iştirakını qanunvericilik məcburi hesab etsə də, bir çox hallarda dövlət tərəfindən ödənişsiz təyin edilən müdafiəçilər də yetkinlik yaşına çatmayan şəxsə ittihamın mahiyyətini, onun müvafiq hüquq və vəzifələrinin mahiyyətini tam izah etmirlər. Başqa sözlə desək bu prosedurlar formal olaraq keçirilir. Nəticədə, yetkinlik yaşına çatmayan şəxs öz müdafiəsini tam effektiv təşkil edə bilmir. Belə halların qarşısının alınması üçün yetkinlik yaşına çatmayanlara ittiham elan edilərkən (ittihamın mahiyyəti və təqsirləndirilən şəxslərin hüquq və vəzifələrinin izahı həyata keçirilərkən) müvafiq hərəkətlərin video çəkilişlə müşayiət olunması və belə tədbirlərin də qanunvericiliklə məcburi qaydada müəyyən edilməsi daha məqsədəmüvafiq olardı.

b) **Prosessual hüquqlar**

Cinayət Prosessual Məcəllədə təsbit olunur ki, həmin Məcəllədə nəzərdə tutulmuşlardan başqa və insan hüquqlarına uyğun olmayan və xüsusilə də "ədalətli mühakimə olunma hüququna" zidd olan prosessual qaydalar tətbiq edilmir. Məcəllə

həmçinin qanunçuluq, təqsirsizlik prezumpsiyası prinsipləri, zəruri olduqda pulsuz hüquqi yardım da daxil olmaqla ixtisaslı hüquqi yardım almaq hüququ, irəli sürülən ittiham barədə məlumat almaq hüququ, özünü və qohumlarını ifşa etməkdə sərbəstlik və sirrlərin qorunması hüququ kimi təməl cinayət prosessual prinsipləri müəyyən edir.

Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı tətbiq edilən xüsusi müddəalar Cinayət Prosessual Məcəllənin L fəslində öz əksini tapır. Belə müddəalardan birində qeyd edilir ki, yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraat ***"hər hansı bir gecikdirməyə yol verilmədən aparılmalıdır"***. 16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir. Bundan əlavə, yetkinlik yaşına çatmayan şəxs barəsində məhkəmə baxışı da daxil olmaqla, bütün cinayət prosesi dövründə iş üzrə onun müdafiəçisinin iştirakı məcburidir. Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işinin məhkəmə baxışında yetkinlik yaşına çatmayan şəxsin valideynləri və ya digər qanuni nümayəndələri iştirak etmək hüququna malikdirlər lakin, yetkinlik yaşına çatmayan şəxsin mənafeyi naminə məhkəmə özünün əsaslandırılmış qərarı ilə həmin şəxslərin məhkəmə baxışında iştirakını tələb edə və ya "yetkinlik yaşına çatmayan şəxsin mənafeləri üçün zəruri olduğunu güman etməyə əsaslar olduqda", valideynlərin və ya digər qanuni nümayəndələrin iştirakından imtina edə bilər (Cinayət Prosessual Məcəllənin 435.3-cü maddəsi).

Beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün valideynlər onların uşaqları həbs olunduğu halda dərhal məlumatlandırılmalı və uşaq dindirilən zaman onların valideynləri, qanuni nümayəndələri və ya digər müvafiq böyüklər dindirmədə iştiraklar etməlidirlər. Valideynlərin və ya digər müvafiq böyüklərin polisin dindirmələrində iştirak etməsi yaxşı təcrübə üçün və uşaqların ədliyyə sisteminə çıxışının təmin edilməsi üçün zəruri hesab olunur. Valideynin iştirakı olmadan uşağın deyilənləri həm məzmun baxımından həm də dil baxımından anlamasını təmin etmək çətindir. Dindirmədə iştirak edən böyük uşağa öz fikrini aydın şəkildə ifadə etməkdə köməklik göstərə bilər (əgər bu uşağın ən yaxşı mənafeyinə xidmət edirsə).

### c) Hüquqi yardım və köməklik

Konvensiyanın 40(2)(b)(ii)-ci maddəsində nəzərdə tutulur ki, Tərəf Dövlət təmin etməlidir ki, "yetkinlik yaşına çatmayanın öz müdafiəsinə hazırlaşarkən və ya bunu həyata keçirərkən ona hüquqi yardım və ya digər lazımi yardım göstərilsin". UHK-nin 37-ci maddəsi qeyd edir ki, hər bir uşaq həbs edildikdən sonra ləngidilmədən hüquqi və digər müvafiq yardım almaq hüququna malik olmalıdır.

Bundan başqa, Pekin Qaydalarının 15.1-ci maddəsində yetkinlik yaşına çatmayan şəxsin müdafiəçi ilə təmin olunması üçün ***onun müraciət etmək hüququ*** təsbit edilmişdir. Baxmayaraq ki, beynəlxalq standartlar "hüquqi və digər müvafiq yardım almaq" hüququna istinad edir, uşaqlar sadəcə olaraq digər müvafiq yardımın olması səbəbindən hüquqi yardım əldə etmək hüququndan məhrum edilməməlidirlər. Uşaqlara dindirilmənin başlanmasından öncə öz qanuni nümayəndələri ilə təklikdə qalmaq üçün vaxt verilməlidir ki, onlar öz vəkilləri ilə məsləhətləşsinlər, ona suallar versinlər və ümumiyyətlə düşdükləri vəziyyəti başa düşsünlər.

Uşaqlar həbs olunmaları anından etibarən, ona qarşı ittihamın irəli sürüldüyü ilkin dinləmələr zamanı və öz müdafiəsinə hazırlaşarkən və həyata keçirərkən hüquqi cəhətdən təmsil olunmalıdırlar.

Baxmayaraq ki, UHK "pulsuz" hüquqi yardım məsələsinə toxunmur, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt uşağın və ya onun valideynlərinin vəkilin haqqını ödəyə bilmədikləri halda uşaq üçün pulsuz hüquqi yardımın təmin olunmasını təsbit edir.

Cinayət Prosessual Məcəllə cinayət təqibini həyata keçirən üzərinə öhdəlik qoyur ki, onlar dindirilməyə və ya hər hansı digər istintaq hərəkətinə başlamazdan öncə şübhəli və təqsirləndirilən şəxsə onun müdafiəçi və ya qohumu ilə əlaqə yaratmaq hüququna mailk olduğu barədə məlumat versin. Lakin, bu hər bir uşağın dindirilmə zamanı müdafiəçisinin iştirakı hüququna və dindirilmədən öncə öz müdafiəçisi ilə məsləhətləşmək hüququna aid edilmir. Eyni zamanda, bu beynəlxalq hüquqa zidd olaraq uşağın, onun valideynlərinin və/ və ya onun qanuni nümayəndələrinin müdafiəçiyə qanuni haqq ödəmək imkanı olmadıqda uşağın pulsuz hüquqi yardım əldə etməsini də təmin etmir.

UH Komitəsi özünün 10 nömrəli Ümumi Şərhində Pekin Qaydalarının 10.1-ci Qaydasını təkrarlayaraq Dövlətlərin qanunvericiliklə uşaqlara qarşı proseslər zamanı valideynlərin və ya qanuni nümayəndələrin maksimum dərəcədə mümkün cəlbini təmin etməsini tövsiyə etmişdir. UH Komitəsi Azərbaycan Respublikasının hesabatının ən son təhlili zamanı hökumətə "yaşı 18-dən az olan, qanunla münaqişədə olan şəxslərin hüquqi yardıma çıxışının təmin edilməsini" tövsiyə etmişdir.

Milli qanunvericiliyə əsasən yetkinlik yaşına çatmayan şəxslərin cinayət prosessual fəaliyyət qabiliyyəti məhdurddur və onlar müstəqil şəkildə hüquqi yardım və köməklik almaq üçün müraciət etmək hüququna malik deyillər. Bu səbəbdən də qanunvericilik yetkinlik yaşına çatmayan şəxsin hüquqi yardım ilə təmin edilməsini müstəqil şəkildə tələb etməsi üçün belə şəxslərə müvafiq hüququn verilməsini nəzərdə tutmalıdır. Yetkinlik yaşına çatmayan şəxslərə hüquqi yardım

göstərilməsi iki mərhələdə, həm belə şəxsin öz müdafiəsinə hazırlaşarkən, yəni işin ibtidai araşdırılması mərhələsində həm də onun müdafiəsini həyata keçirərkən, yəni işə məhkəmədə baxılarkən zəruridir. Yetkinlik yaşına çatmayanın cinayət prosesi dövründə müdafiəçisinin iştirakı məcburi xarakter daşıyır və yetkinlik yaşına çatmayan belə müdafiəçidən imtina etmə hüququna malik deyildir (Cinayət Prosessual Məcəllənin 92.3.5, 432.2-ci maddəsi). Qanunvericilik eyni zmanada cinayət törətdiyi zaman cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxslərin barəsində müvafiq birinci istansiyası məhkəməsində işlərə baxılarkən müdafiəçinin iştirakını məcburi hesab edir. Əgər yetkinlik yaşına çatmayan şəxslərin müdafiəçiyə ödəniş etməyə maddi imkanı yoxdursa ona dövlət tərəfindən pulsuz müdafiəçi təyin edilir (Cinayət Prosessual Məcəllənin 19.4.4.-cü maddəsi). Analoji müddəalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində də öz əksini tapmışdır (İXM-nin 376.1, 376.2 və 177.4-cü maddələri).

Lakin dövlət tərəfindən yetkinlik yaşına çatmayan şəxslərə hüquqi yardımın təqdim edilməsi sahəsində bəzi çatışmazlıqlar aşkar olunmuşdur. Müdafiəçilərin bir çoxunun yetkinlik yaşına çatmayanlarla iş və pedaqoji təcrübəsi olmur. Qanunvericilikdə də yetkinlik yaşına çatmayanlar üzrə xüsusi vəkillik qurumu və ya Vəkillər Kollegiyasının xüsusi bir bölməsi öz əksini tapmamışdır. İkincisi, təqdim olunan vəkillər hər bir ərazi vahidi üçün Vəkillər Kollegiyası tərəfindən təyin olunmuş müdafiəçilərin arasından seçilirlər. Qeyd edək ki, belə vəkillərin sayı bir sıra hallarda 2 nəfərdən artıq olmur və yetkinlik yaşına çatmayanların seçimi üçün siyahıda başqa alternativ şəxsi tapmaq mümkün olmur. Üçüncüsü, vəkillər yalnız yetkinlik yaşına çatmayanları cinayət prosesinin gedişatında (istintaq və məhkəmə, habelə komissiyada işlərə baxarkən) təmsil edirlər. Şəxsə hüquqi məsləhətlər verilməsini isə həyata keçirmirlər. Dördüncü amil isə odur ki, dövlət tərəfindən təyin edilən müdafiəçilərə göstərdikləri xidmətə görə çox az haqq verilir ki, bu da müdafiəçinin effektiv fəaliyyət göstərməsinə, yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının lazımi qaydada müdafiə olunmasına mənfi təsir göstərir.

***Tövsiyələr***

***Qeyd olunan çətinliklərin qarşısını almaq məqsədi ilə aşağıdakılar tövsiyə olunur:***

- ***Qanunvericilik yetkinlik yaşına çatmayan şəxsin hüquqi yardım ilə təmin edilməsini müstəqil şəkildə tələb etməsi üçün belə şəxslərə müvafiq hüququn verilməsini nəzərdə tutmalıdır;***
- ***Yetkinlik yaşına çatmayan şəxslərə dövlət hesabına pulsuz yardım göstərən müdafiəçilər maddi cəhətdən stimullaşdırılmalıdır və yetkinlik yaşına çatmayanlarla uyğun iş təcrübəsinə malik olan müdafiəçilərdən ibarət xüsusi qrup yaradılmalıdır.***

## 4. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyada yetkinlik yaşına çatmayanların hüquqları

Milli qanunvericiliyə əsasən, uşaq və onun nümayəndəsinin Komissiyada keçirilən proseslərdə "iştirak etmək" və Komissiyaya vəsatətlər vermək hüququ vardır lakin, onların sübut və şahidlər təqdim etmək və ya orqanlar tərəfindən təqdim edilmiş sübutları mübahisələndirmək haqqında heç bir müddəa öz əksini tapmamışdır. Həqiqətən də, milli qanunvericilikdə Komissiyanın qərarının uşağın faktiki olaraq qanunazidd əməldə iştirak etməsinin müəyyən olunmasına əsaslanmalı olmasını və yetkinlik yaşına çatmayan şəxsin özünü müdafiəsi üçün təqdim etdiyi və qanunla qadağan olunan əmələ görə məsuliyyətə təsir edən vadar etmə kimi məsələlərə baxmasını tələb edən müddəa yoxdur. Qanunvericilikdə həmçinin, Komissiyanın qərarının "uşağın ən yaxşı mənafeləri" və "azadlıqdan məhrum etmənin ən son tədbir kimi tətbiq edilməsi" prinsiplərinə uyğun olması barədə müddəa təsbit olunmamışdır.

Qanun Komissiyanın qərarında sübutların və qərarın asaslandığı qanunların qeyd etdirilməsini nəzərdə tutur və həmçinin həmin qərardan yerli məhkəməyə şikayət vermək hüququnu tanıyır. Şikayətin verilməsi Komissiyanın qərarının icrasını təxirə salır. Məhkəmə tərəfindən baxılmalı olan qanuni və faktiki məsələlərin dairəsi aydın deyil. Təcrübədə isə belə qərarlardan şikayətlər çox nadir hallarda verilir və ya ümumiyyətlə verilmir.

## 5. Şəxsi həyatın sirrinin qorunması hüququ

Pekin Qaydalarının 8-ci maddəsində nəzərdə tutulmuşdur ki, ***"Yetkinlik yaşına çatmayanlara lüzumsuz aşkarlıq səbəbindən zərər vurulmasına, adlarının ləkələnməsinə yol verməmək üçün onların məxfilik hüquqlarına bütün mərhələlərdə hörmət edilməlidir"***. Həqiqətən də həm Cinayət Prosessual Məcəllədə həm də İnzibati Xətalar Məcəlləsində konfidensiallığın qorunması haqqında kifayət qədər müddəalar öz əksini tapmışdır. Praktikada ibtidai istintaq mərhələsində belə məxfilik təmin olunur. Lakin, bir sıra hallarda məhkəmə iclaslarının keçirilməsi zamanı bu prinsip pozulur. Belə ki, cinayət və inzibati xəta haqqında işlərə baxan məhkəmələrin iş yükünün çox olması səbəbindən hakimlər prosesləri fasiləsiz keçirirlər. Bu səbəbdən bir məhkəmə iclas zalına ayrı-ayrı işlər üzrə kifayət qədər insanlar daxil olur. Cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların (təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində olmasından asılı olmayaraq) məhkəmə iclaslarının qapalı şəkildə keçirilməsi ilə bağlı müddəa nəzərdə tutmur. Məhkəmənin öz qərarı ilə qapalı baxış keçirmək səlahiyyəti də vardır. Məhkəmələrdə uşaqların da cəlb edildiyi və təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxslərin mühakimə edilməsi üçün xüsusi otaqlar mövcud deyil. Yetkinlik yaşına çatmayan şəxslərin işlərinin aparılması zamanı ixtisaslı hakim və prokurorların çatışmazlığı və müdafiəçilərin yetkinlik yaşına çatmayanların

müdafiəsində qeyri qənaətbəxş iştirakı əsas problemlər qismində mövcud olaraq qalır.

Milli qanunvericiliyin müddəalarının beynəlxalq standartlara uyğun olduğu hallarda belə, yetkinlik yaşına çatmayanlarla bağlı prosedurlar zamanı həmin beynəlxalq standartlara riayət edilmir. Misal üçün baxmayaraq ki, beynəlxalq standartlara əsasən yetkinlik yaşına çatmayan şəxslərin işləri ilə bağlı məhkəmə iclasları ictimaiyyətə qapalı şəkildə keçirilməlidir, Komissiyada keçirilən iclaslar Komissiya başqa qərar verməyincə ictimaiyyətə açıq şəkildə keçirilir.

***Tövsiyə***

- ***Hakimlərin belə konfidensiallıq məsələlərinə diqqətlərinin artırılması üçün Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən təlimat hazırlanmalı, hakimlərə nəzarət gücləndirilməli və intizam cəzaları nəzərdə tutulmalıdır.***

## D. CƏZANIN TƏYİN EDİLMƏSİ

Beynəlxalq hüquqa əsasən dövlət hər bir uşağın rifahına uyğun şəkildə, onların törətdikləri qanun pozuntuları və işin hallarına uyğun, onların yaş həddi nəzərə alınmaqla elə müxtəlif cəza tədbirlərinə malik olmalıdır ki, bu onların cəmiyyətə olan faydalı rolu nəzərə alınmaqla yenidən inteqrasiyasına yardım etmiş olsun. Qanunvericilikdə nəzərdə tutulmalı olan tədbirlər UHK-nin 40-cı maddəsində qeyd olunmuşdur ki, bura qayğı, istiqamətləndirmə və nəzarət tədbirləri, məsləhətlərin verilməsi, sınaq müddətinin təyin edilməsi, qəyyumluq, təhsil və məzuniyyətdə məşq proqramları və uşağın həbsinə alternativ digər tədbirlər aiddir.

### 1. Mütənasiblik

Mütənasiblik prinsipi bir çox beynəlxalq və regional insan hüquqları müqavilələrində öz əksini tapmışdır. Pekin Qaydalarının 5-ci qaydasında qeyd olunur ki, "cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərə qarşı hər hansı bir tədbir cinayət törətmiş şəxsə və cinayətin hallarına uyğun olmalıdır". Bundan başqa, Pekin Qaydalarının 17(a) qaydasında qeyd edilir ki, ***"yetkinlik yaşına çatmayan şəxsə qarşı görülmüş tədbir nəinki cinayətin hallarına və ağırlıq dərəcəsinə, eyni zamanda yetkinlik yaşına çatmayanların və həmçinin cəmiyyətin vəziyyətlərinə və ehtiyaclarına mütənasib olmalıdır".***

Pekin Qaydaları tələb edir ki, kiçik xətalar istisna olmaqla bütün hallarda cəzanın təyin edilməsindən öncə sosial sorğu haqqında hesabat mövcud olmalıdır. Sosial sorğu haqqında hesabata uşağın ailə vəziyyəti, uşağın harada, kiminlə yaşaması, təhsil və sağlamlıq vəziyyəti də daxil olmaqla uşağın hazırki vəziyyəti və uşağın

cinayəti törətməsi və anlaması halları daxil edilməlidir. Beynəlxalq hüquq tələb edir ki, cəza təyin edilməsi ilə bağlı qərar qəbul edilən zaman uşağın ən yaxşı mənafeləri nəzərdə saxlanılmalı olan ən mühüm məsələ olmalı, atılan əks addım uşağın və cinayətin hallarına mütənasib olmalı və cazanın məqsədi cəzalandırıcı deyil, yenidən inteqrasiyaya rəvac verməli və konstruktiv olmalıdır.

Cinayət Prosessual Məcəllənin təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxsə cəza təyin edilməsi ilə bağlı bəzi müddəaları müəyyən qədər Pekin Qaydalarının 17-ci qaydasını özündə əks etdirir. Məcəllənin 435-ci maddəsində nəzərdə tutulur ki, cəza tədbiri yalnız törədilmiş cinayətin hallarına və ağırlığına deyil, həmçinin yetkinlik yaşına çatmayan şəxsin vəziyyətinə və tələbatına, habelə cəmiyyətin tələbatına uyğun olmalıdır. Yetkinlik yaşına çatmayan şəxsin azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbiri yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə endirilməlidir. Yetkinlik yaşına çatmayan şəxs ağır və ya xüsusilə ağır cinayətin, habelə ağır nəticələrə səbəb olan zor tətbiq etməklə qəsdən törədilmiş cinayətin və ya digər ağır cinayətin təkrarən törədilməsində təqsirli bilinmədiyi halda onun azadlıqdan məhrum edilməsi "məqsədəuyğun" deyildir. Cinayət Prosessual Məcəllə cəzanın təyin edilməsi zamanı yetkinlik yaşına çatmayan şəxsin şəxsi keyfiyyətlərinin və digər şəxslərin təsirinin nəzərə alınmasını tələb edir. Lakin, cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxs barədə xüsusi hesabatın hazırlanması üçün qanunvericiliklə müvəkkil edilmiş xüsusi orqan mövcud deyil. Məhkəmələr tərəfindən belə amillər nəzərə alındığı üçün, çox güman ki, qeyd olunan amillər polis orqanları və mümkün olduğu halda müdafiəçi tərəfindən verilən məlumatlar əsasında müəyyən edilir.

Yetkinlik yaşına çatmayan şəxslər barəsində qeyd olunan cəzalar tətbiq edilə bilər: cərimə, ictimai işlər, islah işləri, müəyyən müddətə azadlıqdan məhrumetmə.

Cinayət Məcəlləsinə əsasən, azdlıqdan məhrum etmə ilə bağlı olan cəza çəkən yetkinlik yaşına çatmayan şəxslər cinayətin ağırlığından asılı olaraq cəzasının ən azı üçdə bir hissəsini çəkdikdən sonra cəzadan azad edilə bilərlər. Bundan başqa, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 91-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar cinayət məsuliyyətindən və ya cəza çəkməkdən azad edilərkən, bu Məcəllənin 75 ( Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) və 80-ci (İttiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə) maddələrində müəyyən edilmiş müddətlər yarıbayarı azaldılır. Eynilə, Cinayət Məcəlləsinin 92-ci maddəsinə əsasən, qeyd olunan kateqoriyadan olan cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxs üçün məhkumluq müddətləri böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il (böyüklər üçün 3 il) və ağır və ya xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın

çəkilib qurtardığı gündən üç ilə (böyüklər üçün müvafiq olaraq 6 və 8 il) qədər müddətdə azldılır.

Cinayət Məcəlləsinin 92-ci maddəsində həmçinin qeyd olunur ki, cinayət törətmiş yetkinlik yaşına çatmayanlar barəsində məhkumluq müddəti ödənilmiş sayılır:

a) böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il (92.0.1.);

b) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən üç il keçdikdə (92.0.2.).

## 2. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan tədbirlər

Konvensiya, BMT-nin minimum standartları  və və yuvenal ədliyyə haqqında normalar Dövlətlərin üzərinə azadlıqdan məhrum etməyə alternativ olan, sosial və/ və ya tədris tədbirləri də daxil olmaqla müxtəlif növlü azadlıqdan məhrum etmə ilə bağlı olmayan təbirləri müəyyən etmək və bu tədbirlərin səmərəli və tətbiq edilə bilən olmasını təmin etmək öhdəliyi qoymuşdur.

Milli qanunvericilikdə bununla bağlı bəzi müddəalar mövcuddur. Bununla əlaqədar olaraq Cinayət Məcəlləsinin 84.2-ci maddəsində nəzərdə tutulur ki, "yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər". Bu müddəadan anlaşılır ki, belə şəxslərə cəza təyin edilərkən məhkəmənin hüququ vardır ki, cinayət törətmiş şəxsə ya müvafiq cəzanı ya da tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etsin.

Cinayət Məcəlləsi "cəza" ilə "tərbiyəvi xarakterli məcburi tədbirləri" bir-birindən fərqləndirir. Onlardan hər ikisi azadlıqdan məhrumetmə ilə bağlı ola və ya olmaya bilər. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan  cəzalara cərimə və ictimai işlər aid ola bilər. Azadlıqdan məhrum etmə ilə bağlı olmayan tərbiyəvi xarakterli məcburi tədbirlərə xəbərdarlıq,  valideynlərinin nəzarəti altına vermə, yetkinlik yaşına çatmayanın üzərinə əmlak vəziyyəti imkan verdiyi halda vurulmuş ziyanın ödənilməsini qoymaq və asudə vaxtın məhdudlaşdırılması və yetkinlik yaşına çatmayanın davranışına xüsusi tələblərin qoyulması onun müəyyən yerlərə getməməsi  daxildir.

Yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilirsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə və ona cəza əvəzinə tərbiyəvi xarakterli məcburi tədbir tətbiq edilə bilər. Valideyn nəzarəti altına vermək hətta o zaman tətbiq edilə bilər ki, yetkinlik yaşına çatmamış şəxs ilk dəfə cinayət törətməmiş olsun lakin, yuxarıda qeyd olunan digər tələblərə uyğun olsun.

Məhkəmə həmçinin yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edərsə, həmin şəxsi cinayət

məsuliyyətindən azad etməklə onu cəzalandırmamaq seçimi edə bilər. Yetkinlik yaşına çatmayan şəxsin belə müəssisədə saxlanması müddəti həmin cinayət üçün Məcəllədə müəyyən edilmiş müddətin maksimum həddindən artıq ola bilməz. Lakin, yetkinlik yaşına çatmayan şəxsin islahı və nəzərdə tutulan tədbirin sonradan davam etdirilməsi zərurətinin aradan qalxması ilə bağlı səlahiyyətli müvafiq Dövlət orqanının qərarına əsasən, yetkinlik yaşına çatmayan şəxs Cinayət Məcəlləsinin 89.2-ci maddəsində nəzərdə tutulmuş müddətin başa çatmasından öncə müəssisədən azad oluna bilər.

**a) Tərbiyəvi xarakterli məcburi tədbirlər**

Məhkəmə tərəfindən cəza və ya məcburi tədbirlərin tətbiq edilməsi üzrə differensasiyanın əsas meyarları Cinayət Məcəlləsinin 88.1-ci maddəsində nəzərdə tutulmuşdur. Bu maddədə qeyd olunur ki, ***"yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edirsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər".*** Tərbiyəvi xarakterli məcburi tədbirlərə (a) yetkinlik yaşına çatmayanın gələcəkdə bir daha cinayət törətməsinin və maddi ziyan vurmasının nəticələri haqqında xəbərdarlıq, (b) onları valideynlərinin və valideynləri əvəz edən şəxslərin və ya Komissiyanın üzərinə həmin şəxslərin davranışına tərbiyəvi təsir göstərmək, (c) yetkinlik yaşına çatmayanın üzərinə əmlak vəziyyəti imkan verdiyi halda vurulmuş ziyanın ödənilməsini qoymaq və (d)asudə vaxtın məhdudlaşdırılması və yetkinlik yaşına çatmayanın davranışına xüsusi tələblərin qoyulması onun müəyyən yerlərə getməməsini, asudə vaxtdan istifadənin müəyyən formalarını, o cümlədən mexaniki nəqliyyat vasitələrinin idarə olunmamasını, günün müəyyən vaxtlarından sonra evdən kənarda olmamasını, müvafiq dövlət orqanının icazəsi olmadan başqa ərazilərə getməməsini, təhsilini davam etdirmək və ya Komissiyanın köməyi ilə işə düzəlmək vəzifəsinin müəyyən edilməsi daxildir (AR CM-in 87-ci maddəsi).

Yuxarıda göstərilənlərdən məlum olur ki, cəzanın təyin edilməsi zamanı milli qanunvericilik Konvensiyanın 37(b) bəndinə uyğun olaraq cəzanı və xüsusilə də azadlıqdan məhrumetmə cəzasının təyinini son tədbir kimi tətbiq edir və müəyyən hallarda cəza təyin etməzdən öncə cinayət törətmiş şəxs barəsində daha yüngül islah mexanizmləri tətbiq edir. Əfsuslar olsun ki, bu prinsipə praktikada tam olaraq əməl olunmur. Belə ki, bir çox hallarda yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərə tərbiyəvi xarakterli məcburi tədbirlər əvəzinə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Buna səbəb cinayət təqibini həyata keçirən orqanların və hətta bəzi hallarda məhkəmənin yetkinlik yaşına çatmayan şəxsin cəzalandırılması yolu ilə islahına nail olmaq meylləri və hakimlərin tətbiq olunacaq tərbiyəvi xarakterli tədbirlərin keyfiyyətinin və effektivliyinin aşağı olması səbəbindən bu cür tədbirlərin tətbiqi nəticəsində şəxsin islah olunmasına inamının olmamasıdır. Hətta tətbiq olunan tərbiyəvi xarakterli tədbirlərin özləri məcburi xarakterə malik olduğu

üçün yetkinlik yaşına çatmayanların hüquqlarını, xüsusilə də azadlıq və sərbəst yerdəyişmə hüquqlarını məhdudlaşdırır. Həmçinin qeyd edilməlidir ki, Komissiyanın tərkibi 11 üzvdən ibarət olsa da onlardan yalnız ikisi ştat üzrə ödənişli vəzifə tuturlar. Yuxarıda qeyd olunmuş nəzarət və tərbiyələndirmə funksiyasının Komissiya tərəfindən fiziki cəhətdən çatdırılmasında və həmçinin Komissiya tərəfindən uşaqların hüquqlarının müdafiəsində çətinliklər yaranır.

**b) Cərimə və ictimai işlər**

Cərimə, yalnız müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayan məhkuma təyin edilir.

Cinayət Məcəlləsinin 85-ci maddəsinə görə, yetkinlik yaşına çatmayana cərimə altı yüz manatadək miqdarda təyin edilir.

İctimai işlər səksən saatdan üç yüz iyirmi saatadək müddətə təyin olunur və yetkinlik yaşına çatmayan məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarda yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz. Yetkinlik yaşına çatmayan məhkumlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir.

## E. CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ İSLAH OLUNMA

### 1. Cismani cəzanın qadağan olunması

UH Komitəsi qeyd etmişdir ki, cəza qismində hər hansı cismani cəzanın tətbiq edilməsi UHK-nin 37-ci maddəsinə ziddir və Dövlətlər tərəfindən ciddi şəkildə qadağan olunmalıdır.

Azərbaycan dövləti tərəfindən təqdim edilmiş sonuncu hesabatın təhlili zamanı uşaq hüquqları Komitəsi özünün ən son müşahidəsində qeyd etmişdir ki, "Tərəf Dövlət tərəfindən yetkinlik yaşına çatmayanları bütün növ cismani cəzalardan qorunması ilə bağlı qanun layihəsinin baxılmaqda olmasının qeyd edilməsi ilə yanaşı Komitə, cari qanunvericiliyin cismani cəzaların bütün mənalarda açıq şəkildə qadağan olunmasını təmin etmədiyi fikrindədir". Komitə Tərəf Dövlətə uşaqların evləri də daxil olmaqla bütün müəssisələrdə hər növ cismani cəzaya məruz qalmasının qadağan olunması məqsədi ilə qanunvericiliyin təqdim və tətbiq edilməsini tövsiyə etmişdir. Komitə Tərəf Dövlətə həmçinin "uşaqların tərbiyə olunması və təhsilinin qeyri-zorakı və iştirakedici formalarının inkişaf etdirilməsi üçün maarifləndirmə və dövlət təhsili kampaniyaları keçirtsin".

***Tövsiyə***

- *Uşaqlara qarşı cismani cəzanın bütün növlərinin bütün müəssisələrdə açıq şəkildə ləğv edilməsi üzrə qanunvericiliyin tam olaraq tətbiq edilməsi və tərbiyə müəssisələrinə nəzarət mexanizlərini müəyyən edilməsi və ya gücləndirilməsi tövsiyə olunur.*

**2. Şikayət mexanizmləri**

Qapalı müəssisələrdə yerləşdirilmiş uşaqların onlarla davranışa dair məsələlər üzrə şikayət etmələrinə vasitə rolunu oynayan mexanizmlər həmin uşaqlar üçün xüsusi əhəmiyyətə malikdir. Uşaqlar belə müəssisələrə yerləşdirildikdə, Dövlətlər onların təhlükəsizliyinin, qorunmalarının, rifahının və müvafiq qayğı və davranışla təmin edilməsi üçün məsuliyyət daşıyırlar. Şikayət mexanizmlərinə çıxış əldə edə bilmədikdə həmin uşaqlar orqanların sui-istifadəsi, təhqir, qəddar rəftar və digər qəbuolunmaz hüquq qozuntuları kimi böyük risklər ilə qarşılaşırlar.

Birləşmiş Millətlər Təşkilatının Azadlıqdan Məhrum Edilmiş Uşaqların Müdafiəsi üzrə Qaydalarında qeyd olunur ki, istənilən qapalı müəssisədə olan uşaqlar "direktora müraciət və şikayət etmək imkanına, habelə inzibati və məhkəmə orqanlarına şikayət etmək və nəticəsi barədə gecikdirilmədən məlumatlandırılmaq hüququna malik olmalıdırlar". Qaydalar eyni zamanda, azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayan şəxslər tərəfindən verilmiş şikayətləri almaq və araşdırmaq və onlara məsələlərin həll olunmasına nail olmaqda yardım göstərəcək ombudsman kimi bir institutun yaradılmasına çağırır. Bundan başqa, BMT-nin Uşaqlara Alternativ Qayğı haqqında Qaydalarına əsasən "qayğı göstərilən uşaqlar onlarla rəftar və ya olduqları şəraitləri və ya onların yerləşdirilməsi ilə bağlı olan şikayət və narahatlıqlarını bildirmələri üçün vasitə olan tanınmış, səmərəli və qərəzsiz mexanizmlərə çıxışa malik olmalıdırlar".

Müəssisədə saxlanılan və şikayət mexanizmlərinə asanlıqla, habelə qorxu və təqibdən azad şəkildə çıxışa malik olan uşaq və gənclərin şikayətlərini almaq və eyni zamanda onların vəziyyətlərinə, onlarla bağlı davranış, xidmət və məkanlara nəzarət etmək səlahiyyətinə malik olan müstəqil təşkilatın olması vacibdir. Personal tərəfindən pis rəftar və zorakılıqla bağlı olan istənilən şikayət təhqiq edilməli və uyğun olduğu halda intizam tədbiri və/ və ya cinayət təqibi ilə nəticələnməlidir.
Uşaqlar tərəfindən verilən şikayətlərin səmərəli şəkildə həll edilməsi və onların hüquqlarının pozulması zamanı müəyyən tədbirlərin təmin edilməsi üçün insan hüquqları üzrə müvəkkilin roluna yenidən baxılmalıdır.
***Tövsiyə***

***İnsan hüquqları üzrə müvəkkilə uşaqlar tərəfindən verilən şikayətləri səmərəli şəkildə həll etməsinə və onların hüquqlarının pozulması zamanı müəyyən tədbirləri təmin etməsinə icazə verilməsi tövsiyə olunur.***

**3. Böyüklərdən ayrı saxlanma**

Milli qanunvericiliyin təhlili zamanı aydın olur ki, Konvensiyanın 37(v) bəndində nəzərdə tutulmuş şərtlər də milli qanunvericilik səviyyəsində qismən təmin olunmuşdur. Belə ki, müvafiq bənddə nəzərdə tutulmuşdur ki, ***"yetkinlik yaşına çatmayanlar azadlıqdan məhrumetmə cəzası çəkərkən yaşlılardan ayrı saxlanılmalıdır".***

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 123.1-ci maddəsinə əsasən "Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan məhkumlar ümumi və möhkəm rejimli tərbiyə müəssisələrində cəza çəkirlər". Lakin, eyni zamanda Cəzaların İcrası Məcəlləsinin 128.1-ci maddəsində təsbit olunmuşdur ki, "on səkkiz yaşına çatmış məhkumlar bir qayda olaraq tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilirlər. Tərbiyə müəssisələrində məhkəmənin qərarına əsasən məhkumlar iyirmi yaşınadək saxlanıla bilərlər". Deməli, yetkinik yaşına çatmayanlarla birlikdə yaşlılar da cəza çəkə bilərlər. Bu baxımdan, maddənin ikinci hissəsində Konvensiyanın sözügedən tələbi tam icra edilməmişdir. Eyni zamanda, məhkəmənin belə bir qərar qəbul edərkən hansı meyarlara əsaslanması məsələsi də Cəzaların İcrası Məcəlləsində açıq qalmışdır. Yuxarıda qeyd olunan ziddiyyətin aradan qaldırılması üçün ***CİM-nin 128.1-ci maddəsinin ikinci cümləsinin maddənin mətnindən çıxarılmasının səmərəli olacağını hesab edirik.*** Məsələnin digər tərəfi isə yetkinlik yaşına çatmayanların mənafelərinə daha ziddir.

Belə ki, əgər şəxs 18 yaşı tamam olmamış cinayət törədirsə və tərbiyə müəssisəsində olduğu zaman onun 18 yaşının tamam olması ilə bağlı cəzaçəkmə müəssisəsinə keçirilirsə, cəzaçəkmə müəssisəsində yaşlıların ona neqativ təsir göstərməsi riski daha artıq olur. Belə təsir bəzi hallarda yetkinlik yaşına çatmayanların cəmiyyətə inteqrasiyasına mane ola, habelə tərbiyə müəssisəsində islah olunmuş həmin şəxsin cinayətkarlığa meylinin artmasına və psixoloji cəhətdən deqradasiyaya uğramasına səbəb ola bilər. Hesab edirik ki, CİM-nin həmin müddəasının icrası zamanı cəzaçəkmə müəssisəsinə yeni keçirilmiş şəxsin yaşlıların neqativ təsirlərindən qorunması üçün qanunvericilikdə müvafiq tədbirlərin tələb kimi əks olunması arzuolunandır. Məsələn, cəzaçəkmə müəssisəsinə keçirilmiş belə şəxsi mümkün qədər yaşlılardan təcrid etmək və ya ünsiyyətinin olmasına müəyyən məhdudiyyətlər qoymaq ağlabatandır.Cinayət törətmiş və tərbiyə müəssisəsində yerləşdirilmiş yetkinlik yaşına çatmayan şəxsin 18 yaşı tamam olarkən, onu cəzaçəkmə müəssisəsinə göndərilməsi, yetkinlik yaşına çatmayanın gələcək həyatına nə dərəcədə təsir etdiyini müəyyən etmək üçün ətraflı araşdırmanın keçirilməsinə ehtiyac vardır.

***Tövsiyə***

***Cəzaçəkmə müəssisəsinə yeni keçirilmiş şəxsin yaşlıların neqativ təsirlərindən qorunması və müəssisələrin səmərəli nəzarətini təmin etmək üçün qanunvericilikdə müvafiq tədbirlərin tələb kimi əks olunması tövsiyə olunur.***

## 4. Nəzarət

Pekin Qaydalarının 23.2-ci maddəsində cəza icra müəssisələrinə müstəqil orqanların (zaminlik işlərinə dair komissiya, probasiya xidmətləri, gənclərin sosial təminat idarələri və digər orqanlar) tərəfindən nəzarət edilməsinin mühüm əhəmiyyətə malik olduğu göstərilmişdir. Azərbaycan Respublikasında penitensiar xidmətin fəaliyyətinə Ədliyyə Nazirliyi və bəzi digər dövlət təsisatları nəzarət həyata keçirir. Xüsusi olaraq nəzarəti həyata keçirən müstəqil orqan isə mövcud deyil.

Fikrimizcə, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaqla, geniş nəzarət tədbirlərinin həyata keçirilməsinə əlavələr nəzərdə tutulmalıdır. Bu baxımdan uşaqların hüquqlarının qorunması habelə, yetkinlik yaşına çatmayan şəxslərə cəzanın və digər tədbirlərin tətbiq edilməsi vəzifələrini həyata keçirən orqanlara nəzarəti həyata keçirmək üçün daha şəffaf nəzarət mexanizmlərinin müəyyən edilməsi məqsədəmüvafiqdir.

*Tövsiyə*

***Beynəlxalq normaların tələblərini təmin etmək üçün belə orqanların yaradılması və səlahiyyətlərinin müəyyən edilməsinin dövlət tərəfindən həyata keçirilməsi habelə belə orqanların yaradılmasının stimullaşdırılması məqsədəmüvafiq hesab edilir.***

## F. CİNAYƏTLARLIĞIN PROFİLAKTİKASI

Digər bir əhəmiyyətli məsələ isə yetkinlik yaşına çatmayanların qeyri qanuni hərəkətlərdən və cinayətləri törətməkdən çəkindirilməsidir. Riyad Qaydalarının III maddəsinin (b) və (e) bəndlərində göstərilmişdir ki, ***"preventiv tədbirlərin həyata keçirilməsini həyata keçirən müəssisələrin, agentliklərin və proqramların səlahiyyətləri tam müəyyən edilməli və cinayət əməllərinin törədilməsi imkanlarının azaldılması üçün metodlar dəqiqləşdirilməlidir"***. Həmin maddənin (f) bəndində isə preventiv tədbirlərdən biri kimi *"müxtəlif xidmətlər və proqramlar vasitəsi ilə cəmiyyətin cəlbi təmin edilməsi"* dir. Yetkinlik yaşına çatmayanların cinayət və digər qanun pozuntularından çəkindirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası qanunvericiliyinə əsasən müxtəlif dövlət orqanlarının üzərinə düşür. Bu orqanlardan ən əsası ***Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyadır.*** Komissiyanın əsas

məqsədlərindən biri yetkinlik yaşına çatmayanların davranışlarına nəzarət edilməsi və onların qeyri-qanuni əməllərdən çəkindirilməsi üçün tədris və pedaqoji tədbirlərin görülməsidir. Digər bir orqan isə Daxili İşlər Nazirliyinin tabeçiliyindəki qurumlarda fəaliyyət göstərən "Yetkinlik yaşına çatmayanların işləri üzrə inspektor"lardır. Onların fəaliyyəti DİN-in daxili sənədləri ilə tənzimlənir. İnspektorlar aşağıdakı hallarda və şəxslərin barəsində müvafiq tədbirlərin görülməsini həyata keçirirlər:

- Yetkinlik yaşına çatmayan azadlıqdan məhrumetmə cəzasını çəkdikdən və ya qapalı müəssisədən geri qayıtdıqdan sonra
- Komissiya tərəfindən barələrində işlərinə baxılmış yetkinlik yaşına çatmayanlar ilə əlaqədar
- Narkotik vasitələrdən istifadə edən yetkinilik yaşına çatmayanlar ilə əlaqədar
- Qeyri-sosial davranışlara yol verən yetkinlik yaşına çatmayanlar və;
- Daimi olaraq məktəbə getməyən yetkinlik yaşına çatmayanlarla əlaqədar.

Yuxarıda qeyd olunan meyarlara cavab verən yetkinlik yaşına çatmayanlar barəsində məlumat alındıqda, onların cinayətlərdən və qanun pozuntularından çəkindirilməsi üçün müvafiq şəxslər inspektorların xüsusi jurnalında qeydiyyata götürülürlər. Lakin, praktikada yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorların preventiv tədbirləri həm məhdud həm də keyfiyyətsiz həyata keçirilir. İspektorlar yalnız cinayət nəticəsində onun barəsində görülə biləcək tədbirlər barəsində şəxsi məlumatlandırır və xəbərdar edir, öz profilaktik söhbətlərinin nəticələri barədə maraqlanmırlar. İnspektorlarla bağlı digər problemli cəhət yetkinlik yaşına çatmayanların valideynlərinin həmin inspektorlara müraciət etmələrindən çəkinməsidir. Bunun isə səbəbi odur ki, inspektorlar uşağı öz jurnallarında qeydiyyata götürdükdən sonra (qeydiyyat müddəti 1 ildir lakin, iki dəfə hər biri 6 ay olmaqla artırıla bilər) həmin qeydiyyat yazıları uzun müddət ərzində saxlanılır və valideynləri də narahat edən məsələ məhz həmin qeydiyyat haqqında məlumatların uşağın həyatına "ləkə" kimi daxil olmasıdır. Valideynlərin və ya onları əvəz edən şəxslərin belə narahatlığı məntiqlidir, çünki bir sıra hallarda Azərbaycan Respublikasının ali təhsil və ya özəl təhsil məktəbləri tələbələrini qəbul edərkən və ya müəyyən işəgötürənlərin əmək müqaviləsi bağlanmasından öncə müvafiq polis orqanına yetkinlik yaşına çatmayanların belə qeydiyyat jurnallarında olmaları barədə sorğu etmələri halları da mövcud olmuşdur. Lakin, belə qeydiyyat məlumatlarının nə qədər saxlanılması və onların təsirlilik dərəcəsi məlum deyil.

Yetkinlik yaşına çatmayanların cinayət törətməsinin və ya qeyri-qanuni hərəkətlər etməsinin qarşısının alınması, onların qanunlara hörmət ruhunda böyüdülməsi bir sıra amillərdən asılıdır. Həmin amillər arasında valideyn tərbiyəsi ən mühüm yer tutur. Lakin, bir çox hallarda valideynlərin və ya yetkinlik yaşına çatmayanların digər qanuni nümayəndələrinin hər ikisinin iş yerində olmaları, övladlarına kifayət qədər vaxt ayıra bilməmələri yetkinlik yaşına çatmayanların

qanunazidd hərəkət etmələri ilə nəticələnir. Bundan başqa yetkinlik yaşına çatmayanların işləri üzrə isnpektorlar yalnız yuxarıda göstərilən hallarada və azyaşlı inzibati xəta törətdikdə və ya törətdikdən sonra gələcəkdə belə halların qarşısının alınması üçün tədbirlər görməyə başlayır. Komissiyanın fəaliyyəti də məhz müəyyən qanun pozuntusu haqqında siqnalların alınmasından və ya belə qanun pozuntularının baş verməsindən sonra başlayır. Lakin, uşağın qanunsuz hərəkətlərdən çəkindirilməsi üçün qanunazidd hərəkətin edilməsindən öncə müraciət oluna bilən və ya müraciət edə bilən şəxslərin dairəsi Azərbaycan Respublikası qanunvericiliyi ilə dəqiq müəyyən olunmamışdır.

*Tövsiyələr*

***Belə halların qarşısının alınması, habelə Riyad Qaydalarının III maddəsinin, xüsusilə də (f) bəndinin tələblərinin yerinə yetirilməsi üçün sosial yönümlü, preventiv və tərbiyələndirici tədbirlərin kompleks şəkildə keçirilməsi məqsədi ilə aşağıdakı tədbirlərin görülməsi əhəmiyyətlidir:***

- ***Qeyd olunan məqsədlərə nail olmaq üçün sosial yönümlü, preventiv və tərbiyələndirici tədbirlərin kompleks şəkildə keçirilməsi məqsədi ilə İxtisaslaşmış Reabilitasiya Mərkəzinin yaradılması və fəaliyyətinin xüsusi qanunvericilik aktı ilə tənzimlənməsi məqsədəuyğun hesab olunur. Mərkəz nəinki cinayət və ya inzibati xəta törətmiş şəxslərin, hətta belə qanun pozuntularının törədilməsi riskini daşıyan yetkinlik yaşına çatmayan şəxslərin çəkindirilməsi məqsədi daşımalıdır. Cəza təhdidi altında lazımi nəticələr əldə edilməsi əvəzinə Mərkəz pedoqoji proqramlar təşkil etməli, mərkəzin psixoloqu və digər sosial işçiləri tərəfindən yetkinlik yaşına çatmayanlarla müvafiq söhbətlər aparılmalı, bu söhbətlərin nəticəsi olaraq həmin şəxslərin narahatçılıqları və ya maraqları müəyyən edilməli, daha sonra isə həmin maraqların inkişaf etdirilməsi üçün müvafiq addımlar atılmalı, lazım olduqda digər dövlət orqanlarına və ya təşkilat, idarə və müəssisələrə lazımi müraciətlər edilməli, lazımi sənədlərin əldə olunmasında yetkinlik yaşına çatmayanlara və ya onların valideynlərinə köməklik göstərməlidir. Bundan əlavə, valideynlərin və ya qanuni nümayəndələrin müstəsna əhəmiyyətini nəzərə almaqla, mərkəz yetkinlik yaşına çatmayanların valideynləri ilə də müvafiq əlaqələr yaratmalı, onlarla söhbət etməli, həmin valideynlərin ailə vəziyyətlərindəki çətinlikləri müəyyən etməli, yetkinlik yaşına çatmayanların tərbiyələndirilməsi, müvafiq qaydada cinayət törədilməsindən çəkindirilməsi üçün tərbiyə-islah proqramı tərtib edərək valideynlərə təqdim etməlidir. Belə proqramlar valideynlərin və uşaqların həyat, təhsil, yaş və s. amilləri nəzərə alınmaqla və individuallıq xüsusiyyətlərinə riayət etməklə tərtib olunmalıdır.***
- ***Belə mərkəzlərin fəaliyyəti, səlahiyyətləri, mərkəzlərə müraciət edə bilən şəxslərin dairəsi qanunvericiliklə müəyyən olunmalıdır.***

- ***Qanunvericilik səviyyəsində (yəni Ailə Məcəlləsinə əlavələr edilməklə) yetkinlik yaşına çatmayanlar barəsində preventiv tədbirlərin görülməsi üçün həmin şəxslərin valideynlərinin, qanuni nümayəndələrinin və ya məktəblərin müraciətlərinin əsasları müəyyən edilməlidir. Əgər məktəb belə bir müraciət etmək istəyirsə, uşağın qeyri adekvat hərəkətlərini təsdiqləyən sənədlər təqdim edilməli və valideynlərinin razılığı alınmalıdır.***
- ***Hesab edirik ki, belə bir Mərkəzin yaradılması və fəaliyyətini tənzimləyən xüsusi bölmə Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz əksini tapmalıdır.***

## II. UŞAQLARLA BAĞLI HƏSSAS ƏDLİYYƏ VƏ CİNAYƏTİN QURBANI VƏ ŞAHİDİ OLAN UŞAQLARIN MÜDAFİƏSİ

### A. Cinayətin şahidi və qurbanı olan uşaqların müdafiə olunması

Cinayət əməllərinin qurbanı olmuş və ya cinayət əməllərinin şahidi olmuş uşaqları müdafiə edən beynəlxalq standartlar UHK-də əks etdirilsə də, cinayətin qurbanı və şahidi olmuş uşaqlarla davranış və onların ədliyyə sisteminə çıxışı ilə bağlı məsələlərə dair daha müfəssəl müddəalar Cinayətin Qurbanı və Cinayətin Şahidi olan uşaqların cəlb edildiyi Ədliyyə Məsələləri haqqında Qaydalarda öz əksini tapmışdır.

Beynəlxalq standartlar uşaqların ***"milli qanunvericiliklə nəzərdə tutulmuş olan ədliyyə mexanizmlərinə və uşaqlara vurulmuş ziyanların aradan qaldırılmasına, habelə ədalətli və adekvat kompensasiyaya"*** çıxış əldə etməli olduqlarını tələb edir.

### 1) Cinayətin qurbanı olmuş uşaqların ədliyyə sisteminə çıxışı

UHK-nın 39-cu maddəsində nəzərdə tutulmuşdur ki, **"İştirakçı dövlətlər hər hansı etinasızlığın, istismarın və sui-istifadənin, işgəncələrin, yaxud hər hansı digər sərt, rəhmsiz və ya ləyaqəti alçaldan rəftarın, yaxud silahlı münaqişələrin qurbanı olmuş uşağın fiziki və psixoloji cəhətdən bərpasına və sosial inteqrasiyasına kömək etmək üçün bütün lazımi tədbirlər görürlər".**

Azərbaycanın hesabatının təhlili zamanı Uşaq Hüquqları Komitəsi Tərəf Dövlətin cinayətin qurbanı və/ və ya qurbanı olmuş bütün uşaqların, məsələn zorakılığın, ev zorakılığın, cinsi və iqtisadi istismarın, oğurlanmanın və insan alverinin qurbanı olmuş, habelə qeyd olunan belə cinayətlərin şahidi olan uşaqların

Konvensiya tərəfindən tələb olunan qaydada müdafiə olunmasını təmin etməsini və Tərəf Dövlətin Cinayətin Qurbanı və Cinayətin Şahidi olan uşaqların cəlb edildiyi Ədliyyə Məsələləri haqqında Qaydaları (İqtisadi və sosial Şuranın 2005/20 saylı qətnaməsi, əlavə) tam olaraq nəzərə almasını tövsiyə etmişdir.

Cinayət Məcəlləsinin müddəaları uşaqlara qarşı törədilən cinayətlərlə bağlı reaksiyanı nəzərdə tutur ki, belə müddəalar UHK—yə uyğun olaraq uşaqların fiziki, əqli və cinsi inteqrasiyasını təhlükə altında qoyan və onların yaşamaq və inkişaf etmək hüquqlarını pozan, habelə onlara ziyan verən, uşaqlara qarşı zorakılığın, pis rəftarın, qəddarlığın və qayğı göstərməməyin bütün formalarını müəyyən edir. Həmçinin azyaşlıya qarşı cinayətin törədilməsi ağırlaşdırıcı hal hesab olunur (CM Maddə 61.1.7). Milli qanunvericilik cinayətin qurbanı olmuş yetkinlik yaşına çatmayanların istənilən növ (həm yazılı, həm şifahi) şikayəti əsasında təhqiqat və ya istintaq orqanlarının müvafiq araşdırmalara başlamalarını mümkün hesab edir. Lakin, bəzi hallarda yetkinlik yaşına çatmayanlar valideyləri tərəfindən zorakılığa və amansız rəftara məruz qalırlar. Ev zorakılığının qurbanı olan uşaqların valideynlərinə qarşı şikayət etmələri isə həm cəmiyyətdə mənfi qarşılanır həm də həmin şəxslər valideynlərindən şikayət etməyə çəkinirlər.

Bundan başqa, praktikada dövlət orqanları yetkinlik yaşına çatmayanların şikayətindən sonra uşaqların mənafeyini nəzərə almamaqla məsələyə həssas yanaşmırlar. Cinayət Prosessual Məcəllədə nəzərdə tutulur ki, "**Cinayət prosesinin fəaliyyət qabiliyyəti olmayan iştirakçısı bu Məcəlləyə uyğun olaraq öz hüquqlarını müstəqil həyata keçirə bilməz. Həmin hüquqları bu Məcəllədə nəzərdə tutulmuş qaydada onun qanuni nümayəndəsi həyata keçirir**". (CPM-in 100.7-ci maddəsi). Eyni zamanda qeyd olunur ki, 14 yaşdan 18 yaşadək olan zərər çəkmiş şəxs, məhdud prosessual fəaliyyət qabiliyyətlidir. Həmin şəxslərin cinayət prosesinin iştirakçıları qismində öz hüquqlarını müstəqil həyata keçirmək imkanları bu Məcəllədə nəzərdə tutulmuş hallarda onların qanuni nümayəndələrinin razılığı ilə məhdudlaşdırılır (CPM-in 100.4-cü maddəsi). Bu müddəalar yetkinlik yaşına çatmayanların öz hüquqlarını tam həyata keçirmələrinə onların qanuni nümayəndələrinin köməyi məqsədi ilə təsbit olunmuşdur. Lakin, yetkinlik yaşına çatmamış zərəçəkmiş şəxsə qarşı onun valideyni və ya qanuni nümayəndəsi tərəfindən cinayət törədildikdə zərər çəkmiş şəxsin cinayət prosessual fəaliyyət qabiliyyətini həyata keçirməsində yuxarıda nəzərdə tutulmuş məhdudiyyətlər səbəbindən çətinliklər yaranır. Habelə, Azərbaycanda yalnız insan alveri və ailədə amansız rəftara məruz qalmış zərər çəkmiş yetkinlik yaşına çatmayanlara müvafiq xidmətlər göstərilir (onlar sığınacaqla, tibbi yardımla və sosial reabilitasiya xidmətləri ilə təmin olunurlar). Digər cinayətlərin qurbanı olmuş azyaşlıların isə sosial reabilitasiyası məsələsi isə açıqdır.

***Tövsiyələr***

*Qeyd olunan səbəblərdən UHK-nin 39-cu maddəsinin Azərbaycan Respublikasında təmin olunması üçün aşağıda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi zəruridir:*

- *Komissiyanın Əsasnaməsinin 10-cu maddəsində yetkinlik yaşına çatmayanların qanuni nümayəndələrinin onlara qarşı qanunsuz əməllərinin təhlükə və ziyanından qorumaq üçün həmin şəxslərin barəsində müxtəlif tədbirlər görülə bilər (hətta uşaqların qanuni nümayəndələrdən alınması üçün qəyyumluq və himayəçilik orqanlarına müraciət edilməsi də nəzərdə tutulmuşdur). Lakin, Əsasnamənin heç bir müddəasında yetkinlik yaşına çatmayanlara qarşı qanunsuz hərəkətlərin baş verib verilməməsini yoxlamaq üçün onların ev və ya yaşayış yerlərinə gedərək onların orada yoxlanılması haqqında müddəa yoxdur. Yetkinlik yaşına çatmayanların valideynlərin sərt, rəhmsiz və ləyaqəti alçaldan hərəkətlərindən qorunması üçün ya Komissiyanın səlahiyyətləri genişləndirilməli ya da onları mütəmadi olaraq sosial işçilərin nəzarətində saxlanmalıdırlar. Ya Komissiya ya da sosial işçilər dövri olaraq yetkinlik yaşına çatmayanları onların evlərində və ailələrində yoxlamalı, problemləri ilə maraqlanmalı, hər hansı bir uşağa qarşı qanunsuz rəftar haqqında siqnal və məlumatları qəbul etməyə hazır olmalı, məktəb və ya digər təhsil müəssisələri ilə sıx əməkdaşlıq etməli, məktəblərdə fərdi və ya kollektiv şəkildə yetkinlik yaşına çatmayanlarla ailədə onlara qarşı baş verən qanunsuzluqlar barədə söhbətlər aparmalıdır. Sosial işçinin səlahiyyətləri qanunvericilikdə daha da genişləndirilməli, bu məsələlər Ailə Məcəlləsində xüsusi fəsil ilə tənzimlənməli və həmçinin sosial işçi institutu gücləndirilməlidir. Əgər sosial işçi yetkinlik yaşına çatmayanlara nəzarətin təmin edilməsi üçün mənzillərə və ya digər yaşayış sahəsinə daxil olmasına icazə verilməzsə sosial işçinin məhkəmə qarşısında vəsatət qaldırmaq səlahiyyətinin olması zəruri hesab edilir. Sosial işçinin məqsədi cinayət prosessual hərəkətləri həyata keçirmək deyil, azyaşlılara qarşı qanunsuz hərəkətlərin qarşısının alınması üçün valideyn və ya digər qanuni nümayəndələrin xəbərdar edilməsindən və onların belə qanunsuz əməllərindən çəkindirilməsi olmalıdır. Əgər həmin əməllərin cinayət və ya inzibati xəta olması aşkar olunarsa bu orqan hüquq mühafizə orqanları qarşısında vəsatət qaldırmalıdır. Təbii ki, belə sosial işçilər digər qanunlara riayət etməli və onun fəaliyyətinə nəzarətin edilməsinin də qanunvericilik səviyyəsində tənzimlənməsi məqsədəuyğundur.*

- *Əgər validenləri və ya qanuni nümayəndələri tərəfindən yetkinlik yaşına çatmayanlara qarşı cinayət törədilərsə, onların cinayət prosesində hüquqlarını müstəqil həyata keçirə bilmələri üçün CPM-də müvafiq maddələrin təsbit olunması və ya belə hallarda onlara digər qanuni*

***nümayəndələrin məhkəmə tərəfindən təyin olunması barədə müddəalar öz əksini tapmalıdır.***

- ***Hökumət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində İnsan Alverinin Qurbanlarına Dəstək Mərkəzi yaratmışdır, Lakin, proqramlar və qaydalar yalnız insan alveri qurbanlarına tətbiq olunur və digər cinayətlərin qurbanlarının müəyyən olunması və müdafiəsi üzrə heç bir məlumat yoxdur. Bütün növ cinayətlərin qurbanı olmuş azyaşlıların sosial-psixoloji reabilitasiyasının və sosial inteqrasiyasının təmin olunması üçün müvafiq qanunvericilik aktlarına dəyişikliklər edilməsi məqsədəmüvafiqdir.***

**2) Cinayətin qurbanı və ya şahidi olmuş uşaqların dindirilməsi**

Uşağın dindirilməsi çətin prosesdir və hətta xüsusilə də, cinayətin qurbanı olmuş uşağın dindirilməsi zamanı ona mənəvi travma yetirə bilər. Bu səbədən də, Uşaq Hüquqları Haqqında Konvensiyanın 12-ci maddəsində Dövlətlərdən uşağın ona hörmətlə yanaşıldığı təhlükəsiz, uşaqlarla bağlı həssas şəraitin və eyni zamanda uşağın şəxsi vəziyyətini təmin edən şəraitin nəzərə alınmasını təmin etməyi tələb edilir. Belə dindirmə prosedurları zamanı uşağın şəxsi həyatı və məxfiliyi qorunmalı və onların təhlükəsizliyi təmin olunmalıdır.

Qeyd olunan müddəalar müəyyən mənada milli qanunvericilikdə öz əksini tapmışdır. Cinayət Prosessual Məcəllənin 226.1-ci maddəsinə əsasən: ***"Şahid, zərər çəkmiş, şübhəli, təqsirləndirilən şəxs və başqa şəxslər müstəntiqin yanına şəxsən, özləri olmadıqda isə onların yetkinlik yaşına çatmış ailə üzvlərindən, qonşularından, mənzil-istismar təşkilatının nümayəndələrindən birinə və ya onların iş, yaxud təhsil yeri üzrə verilən çağırış vərəqəsi ilə çağırılırlar. Onlar, həmçinin teleqram, telefonoqram, faksoqram vasitəsilə çağırıla bilərlər".***

Cinayət Prosessual Məcəllənin 228-ci maddəsi yetkinlik yaşına çatmayan şahidlərin dindirilməsi ilə bağlı özünəməxsus xüsusiyyətlərə malikdir və həmin maddədə qeyd edilir ki, ***"Yetkinlik yaşına çatmayan şahid iş üçün əhəmiyyətli məlumatları şifahi və ya digər formada təqdim edə bilərsə, o, yaşından asılı olmayaraq dindirilə bilər. 14 yaşınadək, müstəntiqin mülahizəsinə görə isə 16 yaşınadək olan yetkinlik yaşına çatmamış şahidin dindirilməsi müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır"***.

Yaşı 16-dan az olan yetkinlik yaşına çatmayan şəxs sadəcə həqiqəti danışması barədə xəbərdar edilir. Lakin o, ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmaya və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdar edilmir.

Cinayət Prosessual Məcəllənin yetkinlik yaşına çatmayan zərər çəkmiş şəxslərin dindirilməsinə şamil edilən 231-ci maddəsinə əsasən "Zərər çəkmiş şəxsin dindirilməsi bu Məcəllənin 227—230-cu maddələrində şahidin dindirilməsi üçün nəzərdə tutulmuş qaydalara müvafiq aparılır".

Belə təminatlar təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxslərə də şamil edilir.

Bundan başqa, istisna hallarda işin hallarının müəyyən edilməsi üçün zəruri olduqda, məhkəmə cinayət işinə cəlb edilmiş hər hansı şəxsdən və ya yetkinlik yaşına çatmayan şəxs dindirilən zaman dindirmədə iştirak edən digər bir şəxsdən məhkəmə iclas zalını tərk etməsini tələb edə bilər. İşə cəlb olunmuş şəxs məhkəmə iclas zalına geri qayıtdıqda yetkinlik yaşına çatmayan şəxs tərəfindən verilən sübutun təfərrüatları həmin şəxsə açıqlanmalı və ona şahidi dindirmək imkanı verilməlidir.

## B. Uşaqlarla bağlı həssas ədliyyə

Digər bir nöqsanlı sahə Azərbaycan Respublikasının yuvenal ədliyyə sahəsində həm qanunvericilik səviyyəsində həm də praktikada azyaşlılara uyğun həssas prosedurların çatışmazlığının olmasıdır. Yetkinlik yaşına çatmayanlar öz yaş xüsusiyyətlərinə görə həssas olurlar və onlarla adekvat davranış tələb olunur. Pekin Qaydalarının 12-ci maddəsində nəzərdə tutulmuşdur ki, ***"Tez-tez və ya müstəsna olaraq yetkinlik yaşına çatmayanlarla məşğul olan, yaxud başlıca olaraq yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınması ilə məşğul olan polis qulluqçuları öz vəzifələrini daha yaxşı yerinə yetirmək üçün xüsusi təlimat və hazırlıq keçməlidir. Bu məqsədlə iri şəhərlərdə xüsusi polis bölmələri yaradılmalıdır"***. Artıq qeyd olunduğu kimi, cinayət və inzibati hüquq sahəsində yetkinlik yaşına çatmayanlarla bir çox dövlət orqanları bağlıdırlar ki, bura polisin təhqiqat və istintaq bölmələri, prokurorluğun müstəntiqləri, yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar (polis) və Komissiyanın əməkdaşları daxildirlər. Yetkinlik yaşına çatmayanların həssaslıq və yaş xüsusiyyətlərini səbəbindən Azərbaycan qanunvericiliyində yetkinlik yaşına çatmayanlarla bağlı bəzi müddəalar mövcuddur.

AR CPM-in 432.1.-ci maddəsində nəzərdə tutulmuşdur ki, ***" Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaq imkan daxilində müvafiq ibtidai istintaq orqanlarının xüsusi bölmələri və ya yetkinlik yaşına çatmayan şəxslərlə müvafiq iş təcrübəsinə malik olan şəxslər tərəfindən aparılmalıdır"***. Məcəllənin 435.1.-ci maddəsində isə göstərilir ki, ***"Yetkinlik yaşına çatmayan şəxslərin törətdikləri cinayətlər barədə cinayət işlərinə daha təcrübəli hakimlər tərəfindən baxılmalıdır"***. Qeyd edək ki, praktikada yetkinlik yaşına çatmayanların işləri üzrə "xüsusi bölmələr" mövcud deyil və qanunun bu tələblərinə riayət edilmir. Həmçinin, azyaşlıların işləri bu azyaşlılarla iş təcrübəsinə malik olan şəxslər tərəfindən istintaq

edilmir. Ümumiyyətlə, Azərbaycan Respublikasında təhqiqat və istintaq orqanları əməkdaşlarının demək olar ki, yetkinlik yaşına çatmayanlarla iş təcrübəsi yoxdur. Bundan əlavə, yetkinlik yaşına çatmayanların işlərinə "daha təcrübəli hakimlər tərəfindən baxılması" tələbi də azyaşlıların həssaslığına adekvatlığın təmin olunması anlamına gəlmir. Daha doğrusu, hakim təcrübəli ola bilər lakin, yetkinlik yaşına çatmayanlarla iş üzrə təcrübəsi olmaya bilər. Bu cəhətdən də milli qanunvericiliyin tələbləri qənaətbəxş deyil. Bunlardan əlavə, azyaşlıların işlərinə baxılarkən həmin orqanlar tərəfindən əməkdaşların istiqamətləndirilməsi üçün heç bir proqram və ya qaydalar üzrə vəsait mövcud deyil. Ümumiyyətlə, azyaşlıların işləri üzrə ixtisaslaşdırılmış polis, prokurorluq və məhkəmələr mövcud deyil. Yeganə ixtisaslaşdırılmış orqan polis idarələrinin tərkibindəki yetkinlik yaşına çatmayanlarla iş üzrə inpektorlardır ki, onlar da yalnız preventiv tədbirlərlə məşğul olur, heç bir təhqiqat və istintaq aparmırlar və bu sahədə xüsusi ixtisasa malik deyillər.

Qanunvericilikdə həmçinin cinayətin qurbanı olmuş şəxslərlə bağlı həssas prosedurlar və həmçinin yetkinlik yaşına çatmayanların ən yaxşı mənafeləri və belə mənafelərin müəyyən edilməsi üçün mexanizmlər, həmçinin, yetkinlik yaşına çatmayanların zərər çəkmiş şəxs olduqları cinayət işlərinin də daha tez bir müddətə baxılmasını tələb edən norma nəzərdə tutulmamışdır. Bundan başqa müstəntiq, prokuror, hakim və ya müdafiəçilər və digər mütəxəssislər şahid, təqsirləndirilən və ya cinayətin qurbanı olmuş yetkinlik yaşına çatmayanlarla ünsiyyət qurmaq üzrə kifayət qədər bacarıqlara malik deyillər.

Zərərçəkmiş və ya şahid qismində tanınan uşaqlarla bağlı işlərin aparılması üzrə sistemlər hazırda uşaqların ədliyyə sisteminə səmərəli çıxışını inkar edərək, beynəlxalq standartlara və mövcud olan tövsiyə olunan təcrübə anlayaşına cavab vermir. Zərərçəkmiş və ya şahid qismində çıxış edən uşaqlar ədliyyə sistemlərində səmərli şəkildə dinlənilmir və sistemlər özləri uşaqlara uyğun formalaşdırılmamışdır. Hətta təcrübədə uşaqlarla işləyən şəxslər onların maraqları çərçivəsində hərəkət etməyə cəhd göstərsələr də zərərçəkmiş və şahid olan uşaqlarla iş aparılması ilə bağlı müvafiq təlimlərin olmaması proseslərin uşaqlara uyğun olmadığı və nəticə etibarı ilə uşaqların ədliyyə sisteminə çıxışını təmin etmədiyi anlamına gələ bilər. Müəlliflərin fikrinə görə, Qaydalar tam olaraq tətbiq oluna bilər və böyük çətinlik və böyük xərclərə səbəb olmadan uşaqların ədliyyə sisteminə çıxışları əhəmiyyətli şəkildə yaxşılaşdırıla bilər.

*Tövsiyələr:*

***Qeyd olunan çətinliklərin aradan qaldırılması, milli qanunvericiliyin bu sahədə mövcud olan beynəlxalq sənədlərin tələblərinə uyğunluğunun təmin olunması məqsədi ilə aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunur:***

- *Uşaq tərəfindən şikayət olunduqda və ya uşaq cinayətin qurbanı olduğunu iddia etdikdə polisin riayət etməli olan xüsusi prosedurlar nəzərdə tutulmalıdır. Bu prosedurlara, şikayət vermiş bütün uşaqlarla müvafiq söhbətlər aparmaq və onların şikayətlərinin xarakterini müəyyən etmək kimi polis və müvafiq olaraq uşaqlarla bağlı bölmənin əməkdaşı qarşısında qoyulmuş tələb daxil edilməlidir.*

- *Yetkinlik yaşına çatmayanlarla iş üzrə həssaslığın təmin olunması üçün AR CPM-də hakimlərin xüsusi təcrübəyə malik olmaları barədə norma öz əksini tapmalıdır. İbtidai istintaq və təhqiqat orqanlarının azyaşlılar üzrə bölmələri faktiki olaraq yaradılmalıdır.*
- *Hakimlərə, prokurorluq əməkdaşlarına, polisin müstəntiq və təhqiqatçılarına, inspektorlara, müdafiəçilərə və digər mütəxəssislərə yetkinlik yaşına çatmayanlarla iş zamanı müəyyən davranış qaydaları haqqında müvafiq treninqlər keçirilməli və onlara "Azyaşlılarla Davranış" qaydaları və ya proqramları hazırlanaraq təqdim edilməlidir. Belə qaydalar və proqramlarda yetkinlik yaşına çatmayan şəxslərlə bağlı minimal tələblər , böyüklərə tətbiq olunan prosedurların (məs, tutma zamanı qandallanmaması) azyaşlılara tətbiq edilməməsi və s. nəzərdə tutulmalıdır;*
- *Qanunvericilikdə cinayətin qurbanı olmuş şəxslərlə bağlı həssas prosedurlar və həmçinin yetkinlik yaşına çatmayanların ən yaxşı mənafeləri və belə mənafelərin müəyyən edilməsi üçün mexanizmlər, həmçinin, yetkinlik yaşına çatmayanların zərər çəkmiş şəxs olduqları cinayət işlərinin də daha tez bir müddətə baxılmasını tələb edən norma nəzərdə tutulmalıdır;*
- *Yetkinlik yaşına çatmayanların formal cinayət prosedurlarından kənar tutulması məqsədi ilə məhkəmələrdə xüsusi iclas otaqları yaradılması məqsədəmüvafiqdir. Bu otaqlar məhkəmə iclas zalına yox daha çox konfrans zalına bənzəsə daha effektiv olar. Eynilə, yetkinlik yaşına çatmayanların ibtidai istintaq və təhqiqat zamanı dindirilmələri üçün xüsusi dindirmə oktaqlarının yaradılması, həmin otaqların orqanın digər otaqlarından fərqləndirilməsi və yetkinlik yaşına çatmayanların gərgin psixoloji duruma düşməmələri və özlərini rahat hiss etmələri üçün həmin otaqların xüsusi dekorasiya edilməsi məqsədəmüvafiqdir. UNİCEF artıq uşaqlar üçün polis otaqlarını və uşaqlarla davranış qaydalarını nəzərdə tutan layihəni tətbiq edir. Lakin bu layihə yalnız polisə deyil, prokurorluq və məhkəmələrə də şamil edilməlidir və bu layihənin ölkənin bütün ərazıilərində tətbiqi stimullaşdırılmalıdır.*

## III. UŞAQLARIN MÜLKİ VƏ AİLƏ HÜQUQU SAHƏLƏRİNDƏ ƏDLİYYƏ SİSTEMİNƏ ÇIXIŞI

Azərbaycan Respublikasında mülki və ailə hüququ sahələrində uşaqların hüquqlarının müdafiəsi üzrə hüquq normaları bir sıra normativ hüquqi aktlarda öz əksini tapmışdır. Bunlardan birincisi və hüquqi qüvvə baxımından ən üstün olanı Azərbaycan Respublikasının Konstitusiyasıdır. Azərbaycan Respublikasının Konstitusiyanın 12.2-ci maddəsində qeyd edilir ki, Konstitusiyada nəzərdə tutulan hüquq və azadlıqlar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bundan əlavə, Konstitusiyasının 148.2-ci maddəsinə əsasən beynəlxalq hüquqi müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir və bu da o deməkdir ki, Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilən beynəlxalq müqavilələr Azərbaycan Respublikasının ərazisində birbaşa hüquqi qüvvəyə malikdir.

Bundan başqa uşaqların mülki və ailə hüququ sahələrində ədliyyə sisteminə çıxışı ilə bağlı məsələlər Ailə Məcəlləsi, "Uşaq Hüquqları haqqında" Qanun, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanun, "Ünvanlı Dövlət Sosial Yardımı haqqında" Qanun, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanun, "Uşaqların İcbari Dispanserizasiyası haqqında" Qanun, "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial Müdafiəsi haqqında" Qanun, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnaməni" təsdiq edilməsi haqqında Qanunda, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanun və bir sıra digər normativ-hüquqi aktlarda öz əksini tapmışdır.

### A. Aidiyyəti dövlət orqanları tərəfindən uşaqların hüquq və mənafelərinin qorunması

Uşaq Hüquqları haqqında Konvensiyanın 19-cu maddəsində iştirakçı dövlətlərdən uşaqları ***"fiziki və ya psixoloji zorakılığın, təhqirin və ya sui-istifadənin, qayğısızlığın və ya etinasız münasibətin, kobud rəftarın və ya istismarın, o cümlədən seksual sui-istifadənin hər cür formalarından müdafiə etmək məqsədilə bütün lazımi qanunvericilik, inzibati, sosial və maarifçilik tədbirlərini" görmələri tələb edilir.*** Bənzər müddəa Uşaq Hüquqları haqqında Qanunun 28-ci maddəsinə də daxil edilmiş və belə rəftar və ya əmələ görə məsuliyyət nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasının 17.2-ci maddəsində uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək vəzifəsi valideynlərin üzərinə qoyulur və həmçinin qeyd edilir ki, bu vəzifənin yerinə yetirilməsinə dövlət nəzarət edir. Ailə

Məcəlləsinin 58 və 59-cu maddələrində uşağı tərbiyə etmək, uşağın sağlamlığını və təhsil almasını təmin etmək, onun hüquq və mənafelərini qorumaq vəzifələri valideynlərin və onları əvəz edən şəxslərin üzərinə qoyulur. Habelə dövlət tərəfindən müdaxilənin belə müdaxilə yalnız uşağın mənafelərinə xidmət etdiyi hallarda yolverilən olması qeyd edilir.

Qanunvericilik uşaqların hüquq və mənafelərinin qorunması ilə bağlı çoxsaylı normativ hüquqi-aktlarda müddəalar nəzərdə tutsa da, sui-istifadəyə, qayğısızlığa, etinasızlığa, kobud rəftara, istismara və ya qanunvericiliklə cinayət və mülki məsuliyyət nəzərdə tutulan digər neqativ hallara məruz qalan uşaqların müəyyən edilməsi, onların vəziyyətinin araşdırılması, onlar barədə qərar qəbul edilməsi və müvafiq tədbirlərin görülməsi qaydaları və prosedurları tam təfərrüatlı şəkildə müəyyən edilməmişdir.

Belə ki, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin 5-ci maddəsindən göründüyü kimi uşaqların hüquqlarının və mənafelərinin qorunması sahəsində qeyd edilən komissiyalara geniş hüquqlar verilmişdir. Yerli komissiyalar rayon (şəhər) icra hakimiyyətinin nəzdində fəaliyyət göstərir və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən koordinasiya edilirlər. Komissiyaların geniş səlahiyyətlərə malik olması, uşaq hüquq və mənafelərinin qorunması sahəsində fəaliyyət göstərən təşkilat və müəssisələr arasında əlaqələndirmənin həyata keçirilməsi funksiyasının nəzərdə tutulması, həmçinin Əsasnamənin 10-cu maddəsində öz vəzifələrini lazımi qaydada həyata keçirməyən valideynlərə qarşı intizam təsir tədbirlərini tətbiq etmək səlahiyyətinin verilməsinə baxmayaraq, qeyd edilən funksiya və səlahiyyətlərin hansı qaydada və hansı hallarda həyata keçirilməsi yalnız ümumi və qeyri-dəqiq şəkildə göstərilmişdir. AR-in Prezidentinin 8 may 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilən "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dövlət nəzarətini həyata keçirən orqanlar arasında koordinasiyanın gücləndirilməsinə cəhd edilsə də, belə nəzarət orqanlarının səlahiyyətləri bir çox hallarda bir-biri ilə üst-üstə düşmüş və nəzarət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə nail olunmamışdır.

*Tövsiyələr*

***Qeyd edilənləri nəzərə alaraq tövsiyə edilir ki, rayon (şəhər) səviyyələrində uşaqların hüquqlarının qorunması məqsədilə hal-hazırda yerli icra hakimiyyətinin nəzdində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların, qəyyumluq və himayəçilik komissiyalarının funksiyalarını həyata keçirmək üçün vahid orqan yaradılsın. Belə ki, yeni təsis ediləcək orqanların yerli səviyyədə istismara, sui-istifadəyə, zorakılığa və digər neqativ hallara məruz qalmış uşaqların müəyyən edilməsi, belə halların araşdırılması, uşaqların alternativ qayğı ilə təmin edilməsi, xüsusi müəssisələrə***

***yerləşdirilməsi, övladlığa götürülməsi, habelə övladlığa götürmənin ləğv edilməsi ilə məşğul olması təklif edilir.***

**B. Ailə, uşağın tərbiyə edilməsində əsas mühit qismində və Dövlət tərəfindən ailələrə dəstək**

Uşaq Hüquqları haqqında Konvensiyanın preambulasında "***uşağın şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində, səadət, məhəbbət və anlaşma şəraitində böyüməsinin vacibliyi təsdiq***" edilir. Bu isə uşaq üçün ailə mühitinə verilən əhəmiyyətə dəlalət edir. Bu baxımdan uşağın ilk növbədə öz ailəsində və öz valideynləri tərəfindən tərbiyələ edilməsi və ona qayğı göstərilməsinə üstünlük verilməlidir (əgər bu uşağın mənafelərinə xələl gətirmirsə).

Azərbaycanda uşaqların xüsusi müəssisələrə verilməsi və ya valideynlərinin onlara baxa bilməməsinin əsas səbəblərindən biri də ailənin maddi vəziyyətinin pis olmasıdır. Gəliri az olan ailələr bir çox hallarda uşağa baxılması üçün dövlət müəssisələrinə müraciət etmək məcburiyyətində qalırlar. Belə halların qarşısının alınması üçün dövlət tərəfindən xüsusi proqramların hazırlanması və tətbiq edilməsinə ehtiyac vardır. "Uşaq hüquqları haqqında" Qanunun 3-cü maddəsində qeyd edilir ki, "uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir."

Bu sahədə bir sıra normativ-hüquqi aktlar və proqramlar mövcuddur. "Sosial müavinətlər haqqında" Qanun, "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanun, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", habelə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında" bununla bağlı bir sıra məsələlər nəzərdə tutulmuşdur. "Sosial müavinətlər haqqında Qanun"un 4-cü maddəsinə əsasən uşaqlara qayğı göstərilməsində valideynlərə yardım edilməsi məqsədilə aşağıdakı aylıq müavinət növləri nəzərdə tutulmuşdur:

a) üç yaşınadək uşağa qulluğa görə müavinət;
b) bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət.
c) sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət.

Habelə qeyd edilən qanunda uşağın anadan olması ilə əlaqədar olaraq birdəfəlik ödənişin edilməsi də nəzərdə tutulmuşdur.

Bundan əlavə, "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunun 4-cü maddəsində qanunun əsas məqsədi kimi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsi göstərilir. Azərbaycan Respublikasında 2014-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən 2014-cü ildə ünvanlı sosial yardımın hesablanması məqsədilə ehtiyac meyarının həddi 100 manat müəyyən edilib. Azərbaycan Respublikasında 2014-cü il üçün yaşayış

minimumu haqqında Azərbaycan Respublikasının Qanununa əsasən 2014-cü il üçün yaşayış minimumu 125 manat olaraq təsdiq edilib. Beləliklə, yaşayış minimumu ilə istehlak səbətinin dəyəri arasında uyğunsuzluq mövcuddur. Faktiki olaraq yaşayış minimumu istehlak səbətindən daha azdır.
"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramına" uyğun olaraq, "uşaqlar, çoxuşaqlı ailələr ən yüksək yoxsulluq riskinə malikdir. Ev təsərrüfatlarında uşaqlarla əlaqədar əlavə xərclər tələb olunduğundan həmin ailələrdə böyüklərin gəlir əldə etmək imkanlarını yaxşılaşdırmaqla yoxsulluq riskini azaltmaq mümkündür. Eyni zamanda aztəminatlı uşaqlı ailələrin zəruri yardımlarla təmin edilməsi məqsədilə onların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri həyata keçirilməlidir."

Ilk baxışdan qanun və dövlət proqramlarında aztəminatlı ailələrə yardım göstərilməsi və belə ailələrin maliyyə imkanlarının yaxşılaşdırılması istiqamətində çoxsaylı müddəalar nəzərdə tutulsa da, praktikada belə müddəalar yalnız formal xarakter daşıyır. Belə ki, "Sosial müavinətlər haqqında" Qanunda üç yaşınadək uşağa qulluğa görə nəzərdə tutulan müavinətin miqdarı 1.5 yaşınadək olanlar üçün 30 manat, 1.5 yaşından 3 yaşınadək olanlar üçün isə 15 manat təşkil edir. Uşağın anadan olması ilə əlaqədar olaraq ödənilən birdəfəlik ödənişin məbləği 90 manat təşkil edir. Azərbaycan Respublikasındakı inflyasiya dərəcəsi habelə qeyd edilən dövlət yardımların çox aşağı məbləğdə olmasını nəzərə almaqla demək olar ki, həmin məbləğlər Azərbaycan reallığında nəinki uşağın orta səviyyəli yaşayış şərtləri ilə, heç minimum həyat şəraiti ilə təmin edilməsinə belə bəs etmir. Bundan əlavə, ünvanlı sosial yardımların verilməsi üçün yerli orqanlar tərəfindən ailələrin maddi vəziyyəti barədə araşdırmalar aparılmır və belə yardımlar əsasən vətəndaşın müraciətinə əsasən verilir və bu da o deməkdir ki, əhalinin təhsilsiz və məlumatsız hissəsi bir sıra hallarda ünvanlı sosial yardımdan kənar qalırlar.

***Tövsiyələr***

***Göstərilən müavinət və yardımların məbləğinin ölkədəki maliyyə-iqtisadi vəziyyətə cavab verə biləcək səviyyədə saxlanılması, habelə müvafiq orqanlar tərəfindən belə müavinət və yardımların alınması imkanları və şərtləri barədə əhalinin məlumatlandırılması istiqamətində tədbirlər görülməsi təklif edilir.***

## C. Uşaqlara alternativ qayğı

Uşaq hüquqları haqqında Konvensiyanın "20.1-ci maddəsinə əsasən ***"öz ailə mühitindən müvəqqəti və ya daimi məhrum olan və ya özünün ən yaxşı mənafeyi üçün belə mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi müdafiə edilmək və kömək almaq hüququna malikdir".***Bundan əlavə, Konvensiyanın 20.3-cü maddəsinə əsasən uşağa qulluq ***"uşağın himayədar ailəyə, islam hüququna görə «kəfalət»ə***

***verilməsindən, habelə övladlığa götürülməsindən, lazım gəldikdə isə, uşaqlara qulluq üzrə müvafiq müəssisəyə qoyulmasından ibarət ola bilər.***"Uşaq Hüquqları haqqında Konvensiya uşağa qayğı göstərilməsində alternativ qayğı metodlarını irəli çəkir və uşağın xüsusi müəssisələrə verilməsini ən son metod kimi qiymətləndirir.

Uşaq hüquqları haqqında Qanunun 31-ci maddəsində qeyd edilmişdir ki, valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi onların övladlığa, qəyyumluğa, himayəçiliyə, digər ailəyə verilməsi, bunlar mümkün olmadıqda isə uşaqlara baxan müvafiq müəssisələrdə yerləşdirilməsi üsulu ilə təmin edilir. Valideyn himayəsindən məhrum olunmuş uşaqların hüquqlarının qorunmasında ilk növbədə onların xüsusi müəssisələrə yerləşdirilməsi deyil, alternativ qayğı metodlarına üstünlük verilir.

1) **Uşaq üzərində qəyyumluq və himayəçilik**

Alternativ qayğı tədbirlərindən biri də valideyn qayğısından məhrum olmuş uşağın qəyyumluq və ya himayəçiliyə verilməsidir. Uşaq hüquqları haqqında Konvensiyanın 18.2-ci maddəsinə əsasən ***Konvensiyada şərh olunmuş hüquqlara təminat verilməsi və həyata keçirilməsinə yardım göstərilməsi məqsədilə iştirakçı dövlətlər qanuni qəyyumlara uşaqların tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirməkdə lazımi kömək edir.*** Azərbaycan Respublikasında qəyyumluq və himayəçilik ilə əlaqədar yaranan münasibətlər əsasən Mülki Məcəllə və Ailə Məcəlləsi ilə tənzimlənir. Mülki Məcəllənin 35-ci maddəsində qeyd edilir ki, "qəyyumlar və himayəçilər yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərdən təyin edilir. Valideynlik hüquqlarından məhrum edilmiş fiziki şəxslər qəyyum və himayəçi təyin oluna bilməzlər". Mülki Məcəllənin 35.1 maddəsinə əsasən **"qəyyum və ya himayəçi, qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı tərəfindən təyin edilir".**

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı qismində rayon (şəhər) icra hakimiyyətinin tərkibində fəaliyyət göstərən Qəyyumluq və Himayəçilik Komissiyaları çıxış edir. Habelə Mülki Məcəllənin 35.5-ci maddəsində qeyd edilmişdir ki, "Qəyyumluq və himayəçilik vəzifələri, qanunla nəzərdə tutulan hallardan başqa, əvəzsiz icra edilir".

Qəyyumluq və himayəçilik münasibətlərinin tənzimlənməsi ilə əlaqədar olaraq qanunvericilikdə və praktikada bir sıra problemlər mövcuddur. Birincisi, qəyyumluq və himayəçilik orqanlarının fəaliyyətini tənzimləyən normativ sənəd yoxdur. Bu orqanların fəaliyyətinin yalnız qəyyum və himayəçi təyin edilməsi ilə bitməməsi, habelə qəyyum və ya himayəçinin təyin edilməsindən sonra onların fəaliyyətinə nəzarət və bir sıra məsələlər üzrə qərar qəbul edilməsində iştirak edilməsinin də bu orqanlara həvalə edilməsini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, qeyd edilən orqanların fəaliyyətini təfərrüatlı şəkildə tənzimləyən normativ sənədin olmaması bir sıra hallarda uşağa qayğı ilə bağlı tədbirlər görülməsində və uşağa qarşı baş verə biləcək hər hansı hüquq pozuntusuna reaksiya verilməsində

gecikmələr və nəticədə uşağın mənafelərinə xələl gəlməsi ilə nəticələnir.

İkincisi, rayon (şəhər) icra hakimiyyətlərinin tərkibində fəaliyyət göstərən qəyyumluq və himayəçilik komissiyalarının üzvləri bir qayda olaraq həmin rayon (şəhər) icra hakimiyyətində digər vəzifə tutan şəxslər olur. Nəticədə həmin şəxslərin tutduğu vəzifə ilə əlaqədar olaraq onların qəyyumluq və himayəçilik məsələlərinə sərf etməyə demək olar ki vaxtı olmur və bununla əlaqədar olaraq valideyn himayəsindən məhrum olmuş uşağın qayğısına qalınmasında öz vəzifələrinin öhdəsindən lazımınca gələ bilmir və bir sıra hallarda səhlənkarlığa belə yol verirlər.

Üçüncüsü, uşağa baxılması ilə əlaqədar qəyyum və ya himayəçiyə ödəniş edilməsi ilə əlaqədar məsələ də qanunvericilikdə qeyri-aydındır. Belə ki, Ailə Məcəlləsinin 141.6-cı maddəsində göstərilir ki, "uşağa qəyyumluq (himayə) vəzifəsi təmənnasız yerinə yetirilir. Hər ay uşağın qəyyumuna (himayəçisinə) onun saxlanılması üçün dövlət tərəfindən təyin edilmiş maddi vəsait verilir". Mülki Məcəllənin 36.2-ci maddəsinə əsasən "qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi olmadan qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın saxlanması üçün zəruri xərcləri qəyyumluqda və ya himayədə olana onun gəliri kimi çatası məbləğlər hesabına ödəyə bilər". Lakin qəyyumluqda (himayədə) olan uşağa gəlir kimi çatası məbləğlər olmadıqda bir sıra problemlər ortaya çıxır. Sosial müavinətlər haqqında Qanunun 7.0.8-ci maddəsinə əsasən valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət verilməlidir, o şərtlə ki, qəyyumluq və himayəçilik komissiyası tərəfindən qəyyum (himayəçi) təyin edilmiş şəxslərin "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanununa əsasən sosial yardım almaq hüququ olmuş olsun və barəsində qəyyumluq (himayəçilik) təyin edilmiş uşaqlar tam dövlət təminatında olmasın. Qanunvericliyə əsasən hal-hazırda belə qəyyumlara (himayəçilərə) 50 manat pul verilməlidir. Praktikada isə qəyyum (himayəçi) ödəniş alınması üçün dövlət orqanlarına müraciət etdikdə bir qayda olaraq Ailə Məcəlləsinin 141.6-cı maddəsinin birinci cümləsi yəni "uşağa qəyyumluq (himayə) vəzifəsinin təmənnasız yerinə yetirilməsi" müddəası əldə rəhbər tutularaq ona belə ödəniş edilməsindən imtina edilir. Istənilən halda Azərbaycanda istehlak məhsullarının qiyməti və inflyasiya dərəcəsini nəzərə alsaq qəyyumluğa (himayəçiliyə) ehtiyacı olan uşaqların saxlanması üçün 50 manat çox az məbləğdir.

***Tövsiyələr***

***Yuxarıda qeyd edilənləri nəzərə alaraq,***

- ***Yerli səviyyədə Qəyyumluq və Himayəçilik Komissiyalarının fəaliyyətinin effektivliyinin artırılması məqsədilə bu komissiyaların fəaliyyətini tənzimləyən əsasnamə qəbul edilsin.***
- ***Qəyyumluğa (himayəçiliyə) ehtiyacı olan uşağın gəlirləri olmadıqda ona***

***baxılması ilə əlaqədar olaraq çəkilən xərclərin kompensasiya edilməsi məqsədilə qəyyuma (himayəçiyə) dövlət tərəfindən ödənilən müavinətin miqdarı qanunvericilikdə adekvat müəyyən edilməlidir.***

**2) Uşağın himayədar ailə və ya digər qayğı göstərən şəxsə verilməsi**

Uşaq hüquqları haqqında Konvensiyanın 20.3-cü maddəsinə əsasən alternativ qayğı formalarından biri də uşağın himayədar ailə və ya digər qayğı göstərən şəxslərə verilməsidir. Ailə Məcəlləsinin 141-145-ci maddələrində uşağın himayədar ailəyə verilməsi ilə bağlı bir sıra məsələlər tənzimlənir. Ailə Məcəlləsinin 142.2-ci maddəsinə əsasən "himayədar ailə haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur." Qanunvericiliyə əsasən burada müvafiq icra hakimiyyəti orqanı qismində AR-in Nazirləri Kabineti çıxış edir. Uşağın himayədar ailəyə verilməsi ilə bağlı müddəaların artıq 2000-ci ildə Ailə Məcəlləsində qəbul edilməsinə baxmayaraq hal-hazırki tarixədək himayədar ailə haqqında əsasnamə Nazirlər Kabineti tərəfindən qəbul edilməmişdir.

Bundan əlavə, Ailə Məcəlləsinin 143-cü maddəsinə əsasən himayədar ailələlərə uşağa qayğı göstərilməsi müqabilində haqq verilməlidir. Qanunvericilikdə belə haqqın məbləği üzrə qeyri-müəyyənlik mövcuddur. Heç bir normativ-hüquqi akt himayədar ailə və ya valideynə ödəniləcək haqqın məbləği barədə müddəa əks etdirmir. Əgər qanunvericilik himayədar valideyni də "himayəçi" qismində qəbul edirsə, o zaman demək olar ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2013-cü il Fərmanına əsasən himayədar valideynə ödənilən haqqın məbləği də aylıq 50 manat təşkil edir.

Ümumilikdə demək olar ki, qəyyumluq (himayəçilik) sahəsində mövcud olan problemlərin bir çoxu uşağın himayədar ailəyə verilməsi məsələlərində də mövcuddur

***Tövsiyələr***

***Bununla bağlı tövsiyə edilir ki,***

- ***Himayədar ailə xidmətlərinin yaradılması, həyata keçirilməsi, himayədar ailələrin seçilməsi, uşaqların himayədar ailələrə verilməsi və onlara nəzarət kimi məsələləri əhatə edən "himayədar ailə haqqında nümunəvi əsasnamə" təsdiq edilməlidir.***
- ***İkincisi, Azərbaycanda uşağın himayədar ailəyə verilməsi hallarının çox az sayda (uşaqların himayədar ailəyə verilməsi ilə bağlı bəzi pilot layihələr) olmasını nəzərə alaraq, bu alternativ qayğı metodunun təbliği və ailələrin himayədar ailə qismində çıxış etməsini həvəsləndirmək məqsədilə dövlət tərəfindən tədbirlər görülməlidir.***

- ***Üçüncüsü, himayədar ailələr və ya digər qayğı göstərən şəxslərə qanunvericiliklə ödənilməli olan məbləğ dəqiq və adekvat müəyyən edilməlidir.***

**3) Uşağın övladlığa götürülməsi**

Uşaq hüquqları haqqında Konvensiyanın 21-ci maddəsi uşağın övladlığa götürülməsinə həsr edilmişdir. Konvensiyanın 21-ci maddəsinin ilk paraqrafında ümumi prinsip olaraq qeyd edilmişdir ki, ***"Iştirakçı Dövlətlər uşağın övladlığa verilməsində onun ən yaxşı mənafeyini nəzərə alırlar."***

Ailə Məcəlləsinin 117.1-ci maddəsinə əsasən övladlığa götürməyə **yalnız uşağın mənafeyi naminə** icazə verilir. Uşaq övladlığa götürülmək üçün qeydiyyata alındıqdan və uşağı övladlığa götürməyi arzu edən şəxs uçota alındıqdan sonra qəyyumluq və himayəçilik orqanı uşağın ən yaxşı mənafeyinin təmin edilməsi məqsədilə uşaq və potensial övladlığa götürən şəxslərin uzlaşdırılmasını aparmalı və qanunda da qeyd edildiyi kimi bu zaman uşağın mənafeyini üstün tutmalıdır.

Uşaqların övladlığa götürülməsi haqqında Avropa Konvensiyasının 21-ci maddəsinin tələblərinə əsasən ***belə uzlaşdırma və ümumilikdə uşaqların övladlığa götürülməsi ilə bağlı digər məsələlər övladlığa götürmənin sosial və hüquqi aspektləri üzrə lazımi təlim keçmiş şəxslər tərəfindən həyata keçirilməlidir.*** Praktikada isə belə uzlaşdırma aparılmır və övladlığa götürmək üçün uçota alınan şəxsin növbəsi çatdıqda o övladlığa götürülmək üçün uşaqların yerləşdiyi müəssisəyə gəlir və özünə uyğun uşağı seçir.

Ailə Məcəlləsinin 124-cü maddəsinə əsasən uşağın övladlığa götürülməsi zamanı "valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə qəyyumların (himayəçilərin), himayədar ailənin, uşaqların yerləşdiyi müəssisələrin rəhbərlərinin" razılığı tələb olunur. Bu şəxslər valideyn himayəsindən məhrum olan uşağa qayğı göstərilməsi üzrə zəncirin müvəqqəti həlqələri rolunu oynayırlar və bu səbəbdən də uşağın övladlığa götürülməsi məsələsində onların razılığının tələb edilməsi həm beynəlxalq praktikaya uyğun deyildir və həm də anlaşılmazdır.

Uşaqların övladlığa götürülməsi haqqında Avropa Konvensiyasının 20-ci maddəsində potensial övladlığa götürənlər və övladlığa götürənlərə təlim keçilməsi və məsləhətlər verilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının qanunvericiliyində bu tip təlimlərin keçilməsi, habelə uşaq övladlığa götürüldükdən sonra övladlığa götürənlərə məsləhətlər və yardım edilməsi nəzərdə tutulmamışdır.

Uşaqların Övladlığa Götürülməsi haqqında Avropa Konvensiyasının 19-cu maddəsində qeyd edilir ki, uşağın mənafelərinin qorunmasını təmin etmək məqsədilə uşaqların övladlığa verilməsi barəsində qərar qəbul edilməzdən əvvəl uşağın bir müddət övladlığa götürənlə yaşaması üçün müddət müəyyən edilə bilər. Bu tip sınaq müddətinin müəyyən edilməsi ilə əlaqədar yerli qanunvericilikdə heç bir müddəa müəyyən edilməmişdir. Təcrübədə isə müəyyən edilmişdir ki, uşağın

yerləşdirildiyi müəssisə uşaq övladlığa verilməzdən əvvəl övladlığa götürəndən həmin müəssisədə uşaqla iki gün vaxt keçirməyi və yalnız bundan sonra qərar verilməsini məsləhət görür. Belə qısa müddət öz-özlüyündə uşaqla övladlığa götürən arasında münasibətlərin necə formalaşacağını və belə qərarın uşağın mənafelərinin qorunmasını təmin etməyini müəyyən etmək üçün kifayət deyildir.

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyasının 21-ci maddəsində qeyd edilir ki, ***uşağın ölkələrarası övladlığa götürülməsinə o halda yol verilir ki,*** "uşağın mənşə Dövlətdə yerləşdirilməsi imkanları lazımınca nəzərdən keçirildikdən sonra ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına uyğun olması müəyyən olunmuş olsun". Ailə Məcəlləsinin 117-ci maddəsinə əsasən uşaq övladlığa götürülmək üçün uçota alındıqdan 6 ay keçmişdirsə və uşağın Azərbaycan daxilində övladlığa götürülməsi mümkün olmamışdırsa yol verilir. Bir qayda olaraq uşaqların ölkələrarası övladlığa götürülməsi övladlığa götürmədən sui-istifadə edilməsi və belə uşaqların dövlət nəzarətindən kənar qalması kimi risklərlə müşayiət olunur. Bu baxımdan uşağın ölkələrarası övladlığa götürülməsinin 6 ay müddət ilə şərtləndirilməsi fikrimizcə düzgün deyildir və adıçəkilən Konvensiyadanəzərdə tutulan "son vasitə" kriteriyasına və tələblərə cavab vermir.
Ailə Məcəlləsinin 124.5, 124.6, 127.1 və 127.2-ci maddələrinə əsasən 10 yaşı olan və yadaha böyük uşağın övladlığa götürülməsi zamanı həmin uşağın razılığı tələb olunur.Övladlığa götürmə haqqında ərizə verilənə qədər uşaq övladlığa götürmək istəyənin ailəsində yaşamışsa və onu öz valideyni hesab edirsə, övladlığa götürmə övladlığa götürülən uşağın razılığı olmadan da aparıla bilər. Övladlığa götürənin xahişi ilə məhkəmə övladlığa götürənlərin adlarını uşağın doğulması haqqında qeydiyyat sənədlərində uşağın valideynlərinin adı kimi göstərə bilər.Ailə Məcəlləsinin 124.6-cı maddəsində qeyd edilən hal istisna olmaqla 10 yaşına çatmış uşağın doğulması haqqında qeydiyyat sənədlərində edilən bu cür dəyişiklik yalnız həmin uşağın razılığı əsasında edilə bilər.

Övladlığa götürmənin ləğv olunması məhkəmə qərarı əsasında həyata keçirilə bilər (Ailə Məcəlləsinin 131.1-ci maddəsi). Övladlığa götürmənin ləğv olunması barədə işə qəyyumluq və himayə orqanının və müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə baxılır (Ailə Məcəlləsinin 131.2-ci maddəsi).

Övladlığa götürmə: (a) övladlığa götürənlər onlara həvalə edilmiş valideynlik vəzifələrini yerinə yetirmədikdə (maddə 132.1.1); (b) övladlığa götürənlər valideynlik hüquqlarından sui-istifadə etdikdə (maddə 132.1.2.); (c) övladlığa götürənlər övladlığa götürülən uşağa qəddar münasibət bəslədikdə (maddə 132.1.3.); və ya (d) övladlığa götürənlər xroniki alkoqolik və narkoman olduqda (maddə 132.1.4) ləğv edilə bilər.

Məhkəmə uşağın rəyini nəzərə almaqla onun mənafeyi naminə digər əsaslarla da övladlığa götürməni ləğv edə bilər (maddə 132.2).

Övladlığa götürmənin ləğv olunmasını övladlığa götürənlərin özləri, uşağın valideynləri, övladlığa götürülən 14 yaşına çatmış uşaq və ya aidiyyəti qəyyumluq və ya himayəçilik orqanı tələb edə bilər (maddə 133).

Övladlığa götürmə işlərinə qapalı məhkəmə iclasında, övladlığa götürənlərin (götürənin), qəyyumluq və himayəçilik orqanı nümayəndəsinin və digər maraqlı şəxslərin və on yaşına çatmış uşağın özünün iştirakı ilə baxılır (Mülki Prosessual Məcəllənin 349-cu maddəsi).

*Tövsiyələr*

***Yuxarıda qeyd edilənləri nəzərə alaraq təklif edirik ki,***

- ***Hansı uşağın övladlığa götürülməsinin sadəcə olaraq övladlığa götürənin seçimi əsasında deyil, övladlığa götürülə bilən uşaqlar ilə uçota alınmış potensial övladlığa götürənlərin bütün xarakteristikalarının uzlaşdırılması vasitəsilə və bu sahədə təcrübə və bilikləri olan sosial işçilər tərəfindən həyata keçirilməsi qanunvericilikdə dəqiq və təfərrüatı ilə nəzərdə tutulsun.***
- ***Övladlığa götürmə zamanı uşaqların övladlığa götürülməsinə qəyyumların (himayəçilərin), himayədar ailənin, uşaqların yerləşdiyi müəssisələrin rəhbərlərinin razılığının tələb edilməsi haqqında tələb ləğv edilsin.***
- ***Övladlığa götürmək üçün uçota alınan şəxslərə həm övladlığa götürmədən əvvəl və həm də övladlığa götürmədən sonra lazımi təlimlərin keçilməsi və yardım göstərilməsi qanunvericiliklə nəzərdə tutulsun.***
- ***Uşaq övladlığa götürülməzdən əvvəl uşaqla övladlığa götürənlər arasında uzlaşmanın müəyyən edilməsi məqsədilə sınaq müddəti müəyyən edilsin və uşağın övladlığa götürülməsi haqqında yekun qərar ancaq bu sınaq müddətinin nəticələrindən asılı olaraq müəyyən edilsin.***
- ***Uşaqların ölkələrarası övladlığa verilməsi üçün nəzərdə tutulan kriteriyalar daha da sərtləşdirilsin və 6 aylıq müddət uzadılsın.***

## D. Mülki prosesdə uşaqların statusu və hüquqları

### 1. Uşağın mənafeyinin qorunması mülki və ailə hüququnda əsas məsələ qismində

UHK-nın 3-cü Maddəsinə əsasən *"sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr, habelə məhkəmələr, inzibati orqanlar, yaxud qanunvericilik orqanları tərəfindən həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq, uşaqlar barəsində görülən bütün tədbirlərdə uşağın ən yaxşı*

***maraqlarının təmin edilməsinə ilk növbədə diqqət yetirilir."*** Ailə Məcəlləsinin 3-cü maddəsində (*Ailə Məcəlləsinin Vəzifələri*) qeyd edilir ki, "ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi " Ailə Məcəlləsinin vəzifələrindən biridir. Bundan başqa, Ailə Məcəlləsinin bir sıra maddələrində səthi olaraq uşağın mənafelərinin qorunması məsələsinə toxunulsa da, uşağın ən yaxşı mənafelərinin qorunması ümdə prinsip olaraq aydın şəkildə qeyd edilməmişdir.Eyni vəziyyə Mülki Prosessual Məcəllədə də mövcuddur ki, burada uşağın mənafelərinin qorunması haqqında bir sıra müddəalar nəzərdə tutulmuşdur. Qeyd edilən müddəalar əsas olaraq yetkinlik yaşına çatmayan şahidin dindirilməsi (Maddə 197), uşağın mənafelərinə xələl gələ biləcəyi halda məhkəmə baxışının qapalı keçirilməsi(10.2-ci maddəyə əsasən "dövlət, peşə, kommersiya sirrinin açılması, şəxsi və ailə həyatı sirrinin yayılması, yetkinlik yaşına çatmayan şəxslərin marağının gözlənilməsi səbəbləri istisna olmaqla, bütün məhkəmələrdə işlərə aşkar baxılır"), iddiaçın himayəsində uşaq olduqda nikahın pozulması haqqında iddianın iddiaçının yaşadığı yerə görə verilməsi (Maddə 36.5) ilə əlaqədar məsələləri əhatə edir.
Lakin, qeyd edilənlərdən başqa MPM uşağın mənafelərinin qorunması haqqında digər təfərrüatlı müddəalar və ya xüsusi mexanizmlər nəzərdə tutmur və xüsusilə də aşağıda qeyd edilən suallara aydınlıq gətirilməsini tələb etmir:

- belə ifadənin verilməsinin uşağın maraqlarına uyğun olub-olmaması;
- uşağın belə ifadənin xarakterini anlaqmar üçün lazımi yaş həddində və əqli inkişaf səviyyəsində olub-olmamaması;
- uşağın məhkəmədə çıxış etməsinə yol-verilməsi və ya qadağan edilməsi halında onun emosional sarsıntı keçirməsi və ya uşağın məhkəmədə çıxış etməsindən faydalanması barədə məlumatın təqdim edilib-edilməməsi;
- uşağın öz çıxış və ya ifadəsində ünvanlandığı məsələlərin məhkəmənin qərar qəbul etməsinə nə dərəcədə aid olub-olmaması;
- uşağın məhkəmədə çıxış etmək və ifadə vermək niyyəti nəzərə alınmaqla, onun belə ifadə verməsinin lehinə və əleyhinə olan digər amillərin olub-olmaması.

Bundan əlavə, MPM-nin 197-ci maddəsinə əsasən **"on dörd yaşına qədər olan şahidin və məhkəmənin mülahizəsi ilə on dörd yaşından on altı yaşına qədər olan şahidlərin dindirilməsi təhsil aldığı müəssisənin nümayəndəsinin iştirakı ilə aparılır."** Lakin, şahidlərin dindirilməsi zamanı iştirak etməli olan təhsil müəssisəsinin nümayəndəsinə münasibətdə təcrübə, bacarıq, savad və peşəkarlıq səviyyəsi barədə tələblər haqqında heçnə qeyd edilmir. Təhsil müəssisəsinin nümayəndəsi belə vəziyyətdə yetkinlik yaşına çatmayanlar ilə işləmək üzrə lazımi tərübə, bacarıq, savad və peşəkarlığa malik olmadıqda məhkəmədə dindirilən uşağın maraqlarına xələl gəlməsi və onun psixoloji sarsıntı keçirməsi mümkündür.

Ümumilikdə, belə bir qənaətə gəlmək olar ki, UHK-nın müddəaları ilə müqayisədə, Azərbaycan Respublikasının qanunvericiliyində uşağın ən yaxşı mənafelərinin təmin edilməsi əsas prinsip olaraq qeyd edilməmiş və belə

mənafelərin müəyyən edilməsi mexanizmləri aydın şəkildə qeyd edilməmişdir.

**2) Uşağın dinlənilmək hüququ**

UHK-nın 12-ci maddəsində göstərilir ki, ***"iştirakçı dövlətlər bu baxışlarını formalaşdırmağa qadir olan uşağı həmin baxışları özünə aid bütün məsələlərlə əlaqədar azad ifadə etmək hüququ ilə təmin edirlər, həm də uşağın baxışlarına onun yaşına və yetkinliyinə müvafiq sürətdə lazımi diqqət yetirilir."*** Bundan başqa, həmin maddədə qeyd edilmişdir ki, ***"bu məqsədlə uşağa imkan verilir ki, ona aid hər hansı məhkəmə araşdırmasının və ya inzibati araşdırmanın gedişində ya bilavasitə, ya da nümayəndə, yaxud müvafiq orqan vasitəsilə onu milli qanunverijiliyin prosessual normalarında nəzərdə tutulan qaydada dinləsinlər".***

Buna bənzər müddəalar Ailə Məcəlləsində də nəzərdə tutulmuşdur. Ailə Məcəlləsinin 52-ci maddəsində qeyd edilir ki, "uşaq məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10-yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər." Ailə Məcəlləsinin 145.3-cü maddəsinə əsasən 10 yaşı tamam olmuş uşaq yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə verilə bilər. Lakin, Mülki Prosessual Məcəllənin 104.5.2-ci maddəsinə əsasən uşaq öz valideynləri əleyhinə ifadə verməkdən imtina etmək hüququna malikdir.

Ailə Məcəlləsinin 51 maddəsinə əsasən uşaq öz hüquq və qanuni mənafelərini qorumaq hüququna, habelə hüquq və mənafelərinin qorunması üçün yaşından asılı olmayaraq müvafiq icra hakimiyyəti orqanına və 14 yaşı tamam olduqdan sonra məhkəməyə müraciət etmək hüququna malikdir. Mülki Məcəllənin 28-ci maddəsinə əsasən, on altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Əgər qeyd edilən şəxslər öz razılığını vermirsə, emansipasiya məhkəmənin qərarı vasitəsilə həyata keçirilə bilər.

Yerli qanunvericiliyə uyğun olaraq, emansipasiya vasitəsilə tam fəaliyyət qabiliyyətli hesab edilən uşaq, özünün qanunvericiliklə nəzərdə tutulan hüquq və qanunla qorunanmaraqlarını özü həyata keçirə bilər (Mülki Prosessual Məcəllənin 49.2-ci maddəsi). Əgər yetkinlik yaşına çatmayanan tam fəaliyyət qabiliyyəti yoxdursa, onun hüquq və maraqları qanunvericiliklə nəzərdə tutulan qaydada onun qanuni nümayəndələri, qəyyumluq və himayəçilik orqanları və ya məhkəmələr tərəfindən həyata keçirilir.Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin 5-ci maddəsinin 8-ci bəndinə əsasən, belə komissiyalar yetkinlik yaşına çatmayanları şəxsən qəbul etmək və

onların şikayət və ərizələrinə baxmaq hüququna malikdir.

Buna baxmayaraq, ailə məsələləri ilə bağlı məhkəmə işləri və uşağı saxlamaq hüququ ilə bağlı mübahisələrdə Ailə Məcəlləsinin 22-ci maddəsinə əsasən uşaq məhkəmə prosesində tərəf qismində çıxış etmir. Halbuki məhkəmə qeyd edilən məsələlər üzrə uşağın hüquqlarına təsir edən və onun mənafelərinə zidd ola biləcək qərar qəbul etmiş olur. Yuxarıda qeyd edildiyi kimi, uşağın dinlənilmək hüququ olsa da, qeyd edilən məhkəmə işlərində uşağın statusu qənaətbəxş şəkildə müəyyən edilməmişdir. Bu baxımdan, ailə məsələləri üzrə məhkəmə işləri və mübahisələrdə, habelə uşağın hüquqları haqqında qərar verilən bütün digər məhkəmə proseslərində uşağın statusunun gücləndirilməsi üçün spesifik normativ həll yolları müəyyən edilməlidir.

Ümumilikdə götürüldükdə, uşağın məhkəmələr və icra orqanları qarşısında öz fikirlərini bildirmək azadlığı Azərbaycan Respublikasının qanunvericiliyində qənaətbəxş şəkildə öz əksini tapmışdır. Buna baxamayaraq, əsas problemlər, qeyd edilən azadlıqları nəzərdə tutan müddəaların icrası zamanı ortaya çıxır. Belə ki, uşağın məhkəmə vəicra hakimiyyəti orqanlarına müraciət etmək hüququnun təmin edilməsi bir çox hallarda qəyyumluq və himayəçilik orqanlarının, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların normal fəaliyyətindən asılıdır. Daha əvvəl də qeyd edildiyi kimi, adıçəkilən komissiyaların fəaliyyətində əhəmiyyətli problem və qüsurlar mövcuddur. Məsələn, əgər qanunvericilik yetkinlik yaşına çatmayan tərəfindən hər hansı hüquq və ya azadlığın həmin yetkinlik yaşına çatmayanın valideynləri vasitəsilə həyata keçirilməsini nəzərdə tutursa və həmin şəxsin valideynləri bu hüquq və ya azadlığa etinasız yanaşırsa, yerli qəyyumluq və himayəçilik və ya yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə komissiyalar uşağın ən yaxşı mənafelərini nəzərə alaraq məsələyə müdaxilə etməlidirlər. Lakin, qeyd edilən komissiyaların fəaliyyətində olan problemlər səbəbindən onlar öz vəzifələrinə lazımi qaydada yerinə yetirmirlər və bu da **nəticədə yetkinlik yaşına çatmayanların hüquqlarının pozulmasına gətirib çıxara bilər.**

Mülki işlər üzrə hüquqi yardım göstərilməsi haqqında UHK-da bənzər müddəalar nəzərdə tutulmasa da, əgər ədalət mühakiməsinin məqsədləri üçün zəruridirsə,mülki iş üzrə təfər olan şəxsin pulsuz hüquqi yadrım almaq hüququ vardır. Hökumət tərəfindən belə hüquqi yardımın göstərilməsi haqqında beynəlxalq normalarda heç bir tələb olmasa da, Hökumətin belə hüquqi yardımın göstərilməsində tərəflərə şərait yaratması haqqında ümumi tələb mövcuddur.

Milli səviyyədə, Mülki Prosessual Məcəllənin 110.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar öz hüquqlarının müdafiəsi üçün məhkəməyə verdiklərə ərizəyə görə dövlət rüsumundan azaddırlar.Buna baxmayaraq, mülki məsələlər üzrə uşaqlara yardım göstərilməsi üçün dövlət tərəfindən maliyyələşdirilən hüquqi yardım mərkəzləri mövcud deyildir. Bu sahədə yalnız UNİCEF tərəfindən yaradılan Uşaq Hüquq Klinikası və yalnız spesifik sahələr üzrə fəaliyyət göstərən digər azsaylıqeyri-hökumət əsaslı hüquqi yardım proqramları mövcuddur. Yetkinlik yaşına çatmayanlara hüquqi yardımın göstərilməməsi onların

hüquq və azadlıqlarının ciddi şəkildə pozulmasına gətirib çıxara bilər. Bu problem Azərbaycanın regionlarında daha aktualdır. Belə ki, regionlarda yetkinlik yaşına çatmayanların pulsuz hüquqi yardım və hətta məlumat almaq imkanları çox məhduddur.

### 3) Uşağın effektiv hüquqi müdafiə vasitəsindən istifadə etmək hüququ

Ədliyyəyə çıxış uşaqların hüquqları haqqında maarifləndirmə, uşaqların hüquqlarının pozulması hallarında müxtəlif hüquqi müdafiə mexanizmləri haqqında məlumatlandırma və uşaq hüquqlarının həyata keçirilməsi üçün yardım alınması barədə maarifləndirmə üzrə müddəaların müəyyən edilməsini tələb edir.

İnsan Hüquqları haqqında Ümumdünya Bəyannaməsində qeyd edilir ki,"hər bir şəxsin konstitusiya və ya qanunla ona verilən əsas hüquqları pozan əmələ görə səlahiyyətli milli tribunallar tərəfindən effektiv hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ vardır." Bu qayda yetkinlik yaşına çatanlara tətbiq edildiyi kimi uşaqlara da tətbiq edilir. Ümumdünya Bəyannaməsi uşaqlarınhansı milli tribunallara müraciət etməsini dəqiq olaraq göstərmir. Buna baxmayaraq, Dövlətin hansı sistemi seçməsindən və tətbiq etməsindən asılı olmayaraq, uşaqların belə sistemə çıxışı olmalı və həmin sistem uşaqların pozulmuş hüquqlarına qarşı hüquqi müdafiə vasitəsi müəyyən etməli və belə hüquqların bərpasını təmin etməlidir.

Konstitusiyanın 68-ci maddəsi uşaqlar da daxil olmaqla hər bir şəxsə onun hüquqlarının pozulması halında hüquqi müdafiə vasitəsindən istifadə hüququ versə də, Mülki Prosessual Məcəllə müəyyən edir ki, uşaq pozulmuş hüquqlarının bərpa edilməsi üçün məhkəmə işini yalnız öz nümayəndəsi vasitəsilə başlaya bilər. Uşağı təmsil edən olmadığı halda qəyyumluq və himayəçilik orqanının onun təmsilçisi qismində çıxış etməsi tələb edilə bilər.Buna baxmayaraq, bütün mülki proseslərdə uşaq və onun nümayəndəsi arasında maraqların açıq və ya gizli şəkildə toqquşması halları və belə halda məhkəmə tərəfindən digər nümayəndələrin cəlb edilməsi ilə bağlı müddəalar daha spesifik olmalıdır.

**Tövsiyələr**

***Yuxarıda qeyd edilənləri nəzərə alaraq, təklif edilir ki,***

- ***Uşağın mənafelərinin ən ümdə prinsip olmasını və belə mənafelərin hər bir hal üçün müəyyən edilməsi mexanizmini nəzərdə tutan zəruri normalar Ailə Məcəlləsi və Mülki Prosessual Məcəlləyə daxil edilsin;***
- ***uşağın hüquqları barədə qərar qəbul edilən bütün məhkəmə proseslərində uşağın statusu Mülki və Ailə Məcəlləsində tanınsın;***
- ***Uşaq və onun nümayəndəsi arasında maraqların açıq və ya gizli olaraq toqquşması və ya uşağın hər hansı digər səbəbdən lazımi qaydada təmsil edilməməsi hallarında uşağın nümayəndə vasitəsilə təmsil edilməsi***

*məsələsi qanunvericilik ilə tənzimlənsin;*

- *Yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının qorunmasında səhvlərə və qüsurlara yol verilməməsi məqsədilə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən komissiyaların fəaliyyəti qanunvericilik ilə təfərrüatlı şəkildə tənzimlənsin.*
- *Xüsusi məhkəmə otaqları, yetkinlik yaşına çatmayanın şahid ifadəsi verməsi zamanı psixoloqun iştirakı da daxil olmaqla yetkinlik yaşına çatmayanlar ilə əlaqədar məhkəmə baxışları üçün xüsusi proseduralar, habelə yetkinlik yaşına çatmayanlar ilə əlaqədar işlərə baxan hakimlərin xüsusi təlim keçməsi tələbi qanunvericilik ilə müəyyən edilsin.*
- *Yetkinlik yaşına çatmayanlara hüquqi yardım göstərilməsi üçün xüsusi hüquq klinikaları təsis edilsin. Həmçinin dövlət orqanları qeyri-hökumət təşkilatlarının iştirakı ilə birlikdə yetkinlik yaşına çatmayanları onların hüquq və azadlıqları barədə məlumatlandırmaq üçün xüsusi maarifləndirici proqramlar hazırlasın.*

**YEKUN**

Aparılmış tədqiqat çərçivəsində, uşaqların ədliyyə sisteminə çıxışını tənzimləyən həm beynəlxalq həm də milli normativ sənədlər ətraflı təhlil edlmiş və bir çox hallarda bütün müddəalar deyil yalnız uyğunsuzluq hallarında normalar açıqlanaraq mövcud olan nöqsanlar ön plana çəkilmişdir. Ümumiyyətlə, bu hesabat üzrə aparılan tədqiqatdan məlum olur ki, Azərbaycan Respublikasının bu sahədə olan qanunvericiliyi beynəlxalq sənədlərlə müəyyən edilmiş norma və standartlara əsasən uyğun gəlir. Lakin, beynəlxalq aktlarda nəzərdə tutulmuş norma və standartlar bəzi hallarda ya milli qanunvericilik səviyyəsində təsbit olunmamışdır ya da təsbit olunsa da, təcrübədə həmin norma və standartların həyata keçirilməsində müəyyən problemlər ortaya çıxır.

Buna baxmayaraq, uşaqların ədliyyəyə çıxışını tənzimləyən qanunvericilik və təcrübəni daha da yaxşılaşdırmaq sahəsində Azərbaycan Respublikasının hələ də imkanları mövcuddur.Bu hesabatda qanunvericilikdə olan uyğunsuzluqlar və boşluqların aradan qaldırılması, norma və standartların tətbiq edilməsinə nəzarətin təmin edilməsi və uşaqların hüquqlarının, o cümlədən onların ədliyyə sisteminə çıxışınıngücləndirilməsiilə bağlı hüquqi islahatların və sistemin dəyişdirilməsinin əsası qismində çıxış edəcək təkliflər irəli sürülmüşdür.**Hesab edirik ki, bu tövsiyələrin yerinə yetirilməsi ədliyyə sisteminə çıxış, o cümlədən bu sahənin əsas tərkib hissəsi hesab olunan yuvenal ədliyyə sahəsində mövcud olan cinayət və inzibati, habelə mülkivə digər sahələr üzrə yetkinlik yaşına çatmayanların hüquqları sisteminin tam təmin edilməsinə və təkmilləşdirilməsinə səbəb olacaqdır.**

## İSTİFADƏ OLUNMUŞ ƏSAS SƏNƏDLƏRİN SİYAHISI:


**Beynəlxalq müqavilələr və standartlar:**

1) BMT-nin 1989-cu il Uşaq Hüquqları Haqqında Konvensiyası
2) BMT-nin Yuvenal Ədliyyənin İdarə Olunması üzrə Standart Minimum Qaydaları "Pekin Qaydaları"
3) BMT-nin Azadlıqdan Məhrum Edilmiş Uşaqların Müdafiəsi haqqında Qaydaları
4) BMT-nin Uşaq Cinayətkarlığının Qarşısının Alınması Qaydaları
5) Yetkinlik Yaşına Çatmayanlar Barəsində Ədalət Mühakiməsinin İcrasına dair Minimal Standart Qaydalar
6) 1953-cü il "İnsan Hüquqları və Əsas Azadlıqları üzrə Avropa Konvensiyası"
7) BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolu
8) BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası və həmin Konvensiyanın "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolu
9) Beynəlxalq Əmək Təşkilatının Məcburi və ya İcbari Əmək haqqında 1930-cü il Konvensiyası
10) BMT-nin Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyası
11) Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" 1993-cü il Konvensiyası
12) "Əlillərin Hüquqlarının Qorunması haqqında" 2006-cı il Konvensiyası

**Azərbaycan Respublikasının qanunvericiliyi**

1) Azərbaycan Respublikasının Mülki Məcəlləsi
2) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi
3) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
4) Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi
5) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
6) Azərbaycan Respublikasının Ailə Məcəlləsi
7) Azərbaycan Respublikasının Cəzların İcrası Məcəlləsi
8) Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədəAzərbaycan Respublikasının Qanunu
9) Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqındaƏsasnamə
10) "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu

11) "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu
12) "Ünvanlı Dövlət Sosial Yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu
13) "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu
14) "Uşaqların İcbari Dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu
15) "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında"Azərbaycan Respublikasının Qanunu
16) "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial Müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu
17) "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu
18) "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu